

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu ilə Səudiyyə Ərəbistanı arasında layihələr müzakirə olunub



3

SƏS

№ 222 (7147)

3 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Sosial müdafiədə yeni hədəflər



2

*Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara 6 326 mənzil və fərdi ev təqdim edilib*

# Qaranlıq uçuruma doğru



11

## YAP İdarə Heyətinin iclası keçirilib



3

## Ekoturizm: hansı potensiala malikdir və nə kimi problemlər var?



6

## 216 azərbaycanlı qətlə yetirilib, 6522 nəfər zərərçəkmiş kimi tanınıb - Baş Prokurorluq



9

## Rusiya səfiri: "Qısa vaxtda Qarabağda fantastik işlər görülüb"



7

## "Hər 4 məktəblidən biri zorakılığa məruz qalır"



16

# Azərbaycan – BƏƏ: dostluq və etimadın təcəssümü

***"Qardaşlıq, qarşılıqlı hörmət, etimad və dəstək üzərində qurulmuş Azərbaycan-BƏƏ dövlətlərarası münasibətləri hazırda dinamik və hərtərəfli inkişaf etməkdədir. Fəal siyasi dialoqumuz bütün sahələrdə əməkdaşlığımızı daha da genişləndirmək üçün yaxşı zəmin yaradır". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Al Nəhyana ölkənin milli bayramı – Müstəqillik Günü münasibətilə ünvanladığı təbrikində bildirib.***

Müstəqil dövlət kimi Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü uğurlu xarici siyasət nəticəsində Avropa ölkələri, Türk dünyası ilə yanaşı, ərəb dövlətləri ilə münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Ölkələr arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələri müasir dövrümüzdə yeni inkişaf mərhələsində olduğunun təzahürüdür. Ötən tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycanın ərəb dünyası ilə tarixi-mədəni bağlılığı yaradan sənədlər mövcuddur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında diplomatik əlaqələr yaradılıb. İki ölkə arasında səfirlik səviyyəsində rəsmi münasibətlər qurulub. Belə ki, Azərbaycanın 1997-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Birləşmiş Ərəb Əmirliklərində Səfirliyi təsis edilib. Həmin səfirlik 2001-ci il 16 iyun tarixindən etibarən BƏƏ-nin paytaxtı Əbu-Dabi şəhərində fəaliyyət göstərir. Bundan başqa 14 mart 2012-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Dubay şəhərində Baş Konsulluq təsis edilib. 2005-ci ildə Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında Anlaşma Memorandumu imzalanması, 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına rəsmi səfəri və s. bu ikitərəfli əməkdaşlığın inkişafına öz töhfəsini verir. Mövcud əlaqələr mövcud münasibətlərin davamlılığını, strateji əhəmiyyət kəsb etdiyini göstərir.

### TƏRƏFDAŞLIĞIMIZIN VƏ DOSTLUĞUMUZUN NÜMUNƏSİ

Vurğulayaq ki, 2021-ci il aprelin 6-da Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxışında bunu əlamətdar nailiyyət kimi dəyərləndirib. "Mən Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik etmək istərdim. Bu gün qonaqlarımız arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirini, həmçinin qardaş ölkədən böyük nümayəndə heyətini görməkdən qürur duyuruq. Bu, tərəfdaşlığımızın və dostluğumuzun yaxşı nümunəsidir, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirir. Birincisi, ona görə ki, artıq göstərildiyi kimi, bu, regionda ən böyük günəş elektrik stansiyasıdır və ikincisi, ona görə ki, artıq qeyd etdiyim kimi, bu, sadəcə, başlanğıcdır", - deyə Prezident bildirmişdir.



*Prezident İlham Əliyev: "Fəal siyasi dialoqumuz bütün sahələrdə əməkdaşlığımızı daha da genişləndirmək üçün yaxşı zəmin yaradır"*

### "MASDAR" İLƏ ƏMƏKDAŞLIQ AZƏRBAYCANI YAŞIL ENERJİNİN ÇOX MÜHÜM İXRAC MƏNBƏYİNƏ ÇEVİRƏCƏK

Müasir dövrümüzdə dünyaya açıq olan Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, eləcə də xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Azərbaycan Cənub Qaz Dəhlizi meqa enerji layihəsini öz tərəfdaşları ilə birgə başa çatdırıb. Bu layihə Azərbaycandan Cənubi Avropaya gedən inteqrasiya edilmiş boru kəmərləri sistemini qurub ki, həmin boru kəmərinin uzunluğu isə 3500 kilometrə malikdir. Azərbaycan ilə Birləşmiş Ərəb Əmirliklərinin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirir. Bu əlaqələrin daha da genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. "Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Əminəm ki, daha çox layihələr olacaq... Mən Azərbaycana etibar edən, bərpaolunan enerjiyə böyük həcmdə investisiya yatırmağı qərar verən və Azərbaycanın yaşıl gündəliklə bağlı hədəflərə çatmasına imkan yaradacaq şirkət olan "Masdar"a xüsusi minnətdarlığımı bildirmək istərdim. Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir" – deyən Prezident bildirmişdir ki, biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq və bu, regionun enerji inkişafında tam bir inqilab olacaq, çünki Azərbaycan dünyada ilk dəfə XIX əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

İki ölkə arasında münasibətlər bir çox sahədə stratrji əhəmiyyət daşıyır. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. "Masdar" ilə aparılan əməkdaşlıq Azərbaycanı yaşıl enerjinin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir. Son illər Azərbaycanla BƏƏ arasında hərtərəfli əlaqələrin genişlənməsi, xüsusilə də nəhəng enerji layihələrinin reallaşdırılması münasibətləri yeni mərhələyə çıxarıb. Bu əlaqələr münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına öz töhfəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycan Prezidenti İlham Əliyev Qvineya-Bisau Respublikasının nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev dekabrın 2-də Qvineya-Bisau Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq və xaricdəki icmalar naziri Karlos Pinto Pereiranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə Qvineya-Bisaunun ətraf mühit naziri Viriato Kassama da daxildir. Dövlətimizin başçısı bu yaxınlarda Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalo ilə görüşünü məmnunluqla xatırlayaraq əlaqələrimizin perspektivləri və əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından bu görüşün çox səmərəli olduğunu dedi və həmin görüşdən az müddət keçməsinə baxmayaraq Qvineya-Bisaudan nazirlər səviyyəsində nümayəndə heyətinin ölkəmizə səfərini əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev iqtisadiyyat, o cümlədən ticarət və investisiya sahələrində əməkdaşlığın qurulmasının siyasi əlaqələrin də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu dedi. Xoş sözlərə görə minnətdarlığını bildirən Karlos Pinto Pereira Qvineya-Bisau Prezidentinin Azərbaycanla ikitərəfli münasibətlərin möhkəmlənməsi istəyini ifadə edərək, rəhbəri olduğu nümayəndə heyətinin ölkəmizə bu məqsədlə gəldiyini vurğuladı.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlığa toxunuldu, Azərbaycan tərəfindən ölkəmizin ali təhsil müəssisələrində Qvineya-Bisaudan olan tələbələrə xüsusilə mühəndislik, neft-mühəndisliyi və digər sahələrdə təhsil təqaüdlərinin ayrılması məsələsi qeyd edildi. Hələ sovetlər dövründə Qvineya-Bisaudan olan çoxlu sayda tələbənin müxtəlif sahələr üzrə Azərbaycanda təhsil aldıqları məmnunluqla xatırlandı, hazırda həmin şəxslərin Qvineya-Bisau Hökumətində təmsil olunduqları bildirildi, həmçinin bugünkü nümayəndə heyətinin tərkibində olan nazirlərin və digər rəhbər şəxslərin də vaxtilə Azərbaycanda təhsil aldıqları vurğulandı.

Görüşdə neft və mədənçilik sahəsində əməkdaşlıq qeyd edildi, Azərbaycanın bu sahədə təcrübəsini bölüşməsi və geoloji kəşfiyyat işlərinin həyata keçirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Ölkələrimiz arasında diplomatik məsləhətləşmələr mexanizminin inkişaf etdirilməsi, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı səfərlərin intensivləşdirilməsi məsələləri müzakirə olundu. Azərbaycanın "ASAN xidmət" təcrübəsinin Qvineya-Bisau üçün maraqlı olduğu qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycanın dövlət orqanları və özəl qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin vahid məkanda təmin edilməsi təcrübəsi olan "ASAN xidmət" BMT tərəfindən də yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti bildirdi ki, ölkəmiz bu sahədə öz təcrübəsini Qvineya-Bisau ilə bölüşməyə hazırdır.

# Heydər Əliyev Fondu ilə Səudiyyə Ərəbistanı arasında layihələr müzakirə olunub






***Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Ər-Riyadda Səudiyyə Ərəbistanının Kral Salman Humanitar Yardım və Qayğı Mərkəzinin rəhbəri Abdullah Ər-Rabiə ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı arasında əlaqələrin yüksək səviyyədə olduğu vurğulanıb, əməkdaşlığın bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.***

Kral Salman Mərkəzi ilə Heydər Əliyev Fondu arasında əməkdaşlığın inkişafı, eləcə də gələcək birgə layihələr istiqamətində müzakirələr aparılıb.

Abdullah Ər-Rabiə, eyni zamanda, İki Müqəddəs Ocağın Xadimi Kral Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanının vəliəhdi, Nazirlər Şurasının sədri şahzadə Məhəmməd bin Salman Al Səudun salamlarını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib.

# YAP İdarə Heyətinin iclası keçirilib






**Dekabrın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib. YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov demokratik inkişaf yolunda əmin addımlarla irəliləyən Azərbaycanın daha bir mühüm ictimai-siyasi proses ərəfəsində olduğunu qeyd edib. "Məlum olduğu kimi, 2025-ci il yanvarın 29-da ölkəmizdə növbəti bələdiyyə seçkiləri keçiriləcək. Siyasi sistemin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyası indiyədək bütün seçkilərə yüksək səviyyədə hazırlaşıb və inamlı qələbələrə imza atıb. Xalqın etimadını layiqincə doğruldan YAP növbəti bələdiyyə seçkilərinə də yeni reallıqlar və çağırışlar fonunda böyük qələbə əzmi ilə qatılır", - deyən Tahir Budaqov bələdiyyə seçkilərinin keçiriləcəyi 118 seçki dairəsinin hər biri üzrə Yeni Azərbaycan Partiyasının öz namizədlərini irəli sürəcəyini diqqətə çatdırıb.**

Daha sonra iclasın gündəliyində olan məsələlər haqqında məlumat verilib. İclasda ilk olaraq "Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planı" müzakirə edilərək təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyasının 19 nəfərdən ibarət Mərkəzi Seçki Qərargahının yaradılması haqqında qərar qəbul olunub. İdarə Heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi, həmçinin səsvermə gününədək seçki komissiyalarının iclaslarını müşahidə edəcək şəxslər təyin edilib.

Daha sonra YAP Sədrinin müavini Əli Əhmədov, partiyanın İdarə Heyətinin üzvləri – Arif Rəhimzadə, Hikmət Məmmədov, Mübariz Qurbanlı və Aynur Sofiyeva çıxış edərək seçki kampaniyasının uğurla həyata keçirilməsi üçün qarşıda duran vəzifələrdən bəhs ediblər.

İclasa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərinin də mütəşəkkil həyata keçirilməsi üçün partiyanın bütün resurslarının cəlb olunacağına əminliyini ifadə edib və bu prosesdə iştirak edəcək partiya üzvlərinə müvəffəqiyyətlər arzulayıb.

# Bakı Təşəbbüs Qrupu BMT-də Afrika əsilli xalqların hüquqlarının müdafiəsinə dair tədbirdə təmsil olunacaq

***Dekabrın 2-dən 6-dək BMT-nin Nyu-Yorkdakı baş qərargahında Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupunun 35-ci sessiyası keçiriləcək. Bu tədbir Afrika əsilli xalqların hüquqlarının müdafiəsi və tarixi ədalətsizliklərin nəticələrinin aradan qaldırılması sahəsində mühüm beynəlxalq platformalardan biri kimi tanınır.***




Bakı Təşəbbüs Qrupundan bildirilib ki, sessiya çərçivəsində Bonayre İnsan Hüquqları Təşkilatı, Baham adalarının BMT-dəki Daimi Nümayəndəliyi və BMT-nin Afrika əsilli xalqların hüquqları üzrə ekspertlər işçi qrupu tərəfindən "Ədalətin bərpası və müstəmləkəçiliyin aradan qaldırılması: müstəmləkəyə məruz qalmış ərazilərdə Afrika əsilli xalqların hüquqlarının müdafiəsi" mövzusunda yan tədbir keçiriləcək.

Bu mötəbər beynəlxalq tədbirdə Bakı Təşəbbüs Qrupunun (BTQ) icraçı direktoru Abbas Abbasov iştirak edəcək. BTQ, müstəmləkəçilik və onun nəticələrinin aradan qaldırılması sahəsində apardığı layihələri təqdim edərək müstəmləkə altındakı xalqların hüquqlarının bərpasına yönəlmiş təşəbbüsləri müzakirə edəcək.

Sessiya və yan tədbir Afrika əsilli xalqların tarixən üzləşdiyi ədalətsizliklərə, sosial-iqtisadi bərabərsizliklərə və insan hüquqları sahəsindəki çağırışlara diqqət yetirəcək. Tədbirin əsas məqsədi bu xalqların hüquqlarının bərpasına nail olmaq, beynəlxalq hüquq çərçivəsində maneələri aradan qaldırmaq və uzunmüddətli həll yolları üçün tövsiyələr irəli sürməkdir.

BTQ sessiyada iştirak etməklə yanaşı, öz fəaliyyətlərini, əldə etdiyi nailiyyətlər və qarşıdakı prioritetlərini təqdim edəcək. Təşkilat, müstəmləkəçilikdən əziyyət çəkən xalqların hüquqlarının beynəlxalq səviyyədə tanınmasına, tarixi ədalətsizliklərin aradan qaldırılmasına və bu xalqların azadlıq mübarizəsinə dəstək vermək məqsədilə fəaliyyətini davam etdirir.

Bakı Təşəbbüs Qrupu Bonayre xalqının müstəmləkəçilikdən azadlığı uğrundakı mübarizəsinə mühüm töhfələr verib. Təşkilat mədəni irsin qorunması, insan hüquqlarının müdafiəsi və beynəlxalq hüquq çərçivəsində konkret həllərin işlənib-hazırlanması istiqamətində əməkdaşlıq edir.

Bu fəaliyyətlərin zirvə nöqtəsi olaraq, 2024-cü il avqustun 22-də Bakıda BTQ-nin təşkilatçılığı ilə "Bonayre adasının Bakıdan keçən BMT Baş Assambleyasındakı öz müqəddəratını təyinetmə yolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə Bonayre xalqının azadlıq mübarizəsini təmsil edən nümayəndələrlə yanaşı, Beliz, Sent-Vinsent və Qrenadin, Surinam, Sent Lüsiya, Böyük Britaniya, Meksika və Niderlanddan olan yüksəksəviyyəli hökumət rəsmiləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və alimlər iştirak ediblər.

Konfransda Bonayre xalqının müstəqilliyinə nail olmaq üçün beynəlxalq hüquqi mexanizmlər və bu istiqamətdə BMT-nin Dekolonizasiya Edilməli Ərazilər Siyahısına yenidən daxil edilmək məqsədilə görülən işlər müzakirə olunub.

BTQ-nin belə təşəbbüslərdə iştirakı Azərbaycanın beynəlxalq səviyyədə dekolonizasiya proseslərindəki liderlik rolunu nümayiş etdirir. Bu, həm də ölkəmizin müstəmləkəçilikdən zərər çəkmiş xalqların hüquqlarının bərpasına verdiyi töhfələrin göstəricisidir. Beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilən Bakı Təşəbbüs Qrupunun bu sahədəki fəaliyyəti, müstəmləkəçilikdən əziyyət çəkən xalqların azadlıq və hüquq mübarizəsinə dəstək məqsədilə aparılan qlobal səylərin mərkəzində yer alır.

# Sosial müdafiədə yeni hədəflər

## *Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara 6 326 mənzil və fərdi ev təqdim edilib*

***Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində ölkəmizdə sosialyönümlü layihələrin sayı genişləndirilib, əhalinin həssas təbəqəsinin sosial məsələlərinin həlli istiqamətində genişmiqyaslı işlər görülür. İcra olunan sosial xarakterli layihələr arasında şəhid ailələri və müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərilir.***



Sağlamlıqlarını torpaq uğrunda itirən Qarabağ əlillərinin mənzil-məişət şəraitləri yaxşılaşdırılır. Əlillərə mütəmadi olaraq yeni mənzillər, avtomobillər verilir. Onların müalicəsi üçün reabilitasiya mərkəzləri açılır və lazım gələndə isə müalicə olunmaq üçün xarici ölkələrə göndərilirlər. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir.

Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş miqyaslı tədbirlərin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı dövlət proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müessislər yaradılıb.

Əlilliyi olan insanlara rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

44 günlük Vətən müharibəsində sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmağı üçün dövlətimiz tərəfindən addımlar atılır. Dövlət başçısının çıxışlarının birində bildidiyi kimi "Siz yaralanmısınız. Amma bilin ki, biz sizi sağaldacağıq. Ən ağır yaralanmış hərbçilərimizi həyata qaytaracağıq. Bizim həkimlərimiz indi gecə-gündüz çalışırlar. Bundan sonra da normal həyata qayıtmaq üçün bütün lazımi tədbirlər görüləcək. Bilirsiniz ki, Birinci Qarabağ müharibəsində əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün Mehriban xanımın şəxsi təşəbbüsü və nəzarəti altında müasir protezlər gətirilir. O protezlər ki, insanlar o protezlərdən istifadə edib futbol da oynaya bilərlər. Bütün bunlar təmin ediləcək".

### DƏSTƏK YÖNÜMLÜ 363 MİN XİDMƏT



Ümummilli Lider Heydər Əliyevin vaxtilə göstərdiyi diqqət və qayğı 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. "Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək" - deyən dövlət başçısının bu sözləri əlilliyi olan şəxslərin sosial müdafiəsinin daim gücləndirilməsində öz əməli təsdiqini tapır.

### "QARABAĞ QAZİLƏRİ BİLMƏLİDİRLƏR Kİ, BİZ DAİM ONLARIN YANINDAYIQ, SÖZDƏ YOX, ƏMƏLDƏ"

Son illərdə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır. Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Sosial dəstək paketi çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 24,2 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 326 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 68,1 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ümumilikdə, postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 130 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 363 min xidmət göstərilib.

Əlbəttə ki, vəd və əməl hər zaman özünü təsdiqləyib. Müharibənin qurtarmasından ötən müddət ərizində döyüş meydanında sağlamlığını itirmiş hərbçilərin sağlamlığının tam bərpa məqsədi ilə 4-cü nəsil müasir protezlərlə təmin edilib. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsini həyata keçirib. Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərimiz Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fondun icra etdiyi xüsusi layihə çərçivəsində Almaniya, İslandiya, İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin ediliblər.

### 490 ŞƏXS 599 ƏDƏD YÜKSƏK TEXNOLOGİYALI MÜASİR PROTEZLƏ TƏMİN OLUNUB

Qarabağ müharibəsi əlillərinə dövlət qayğısı siyasətinə dəstək məqsədi daşıyan bu layihə çərçivəsində 2018-ci və 2019-cu illərdə daha bir qrup Qarabağ müharibəsi əlili Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək texnologiyalı protezlərlə təmin olunub. Döyüşlərində əlil olmuş şəxslər yüksək texnologiyalı reabilitasiya vasitələri, hərəkət edən son - 4-cü nəsil müasir protezlərlə təmin edilib. "Bax, bunu biz edirik... Biz artıq bir neçə reabilitasiya mərkəzi yaratmışıq və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər. Bu, çox genişmiqyaslı, böyük vəsait tələb edən proqramlardır. Ancaq biz bunu edirik və bundan sonra da edəcəyik. Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə", - Prezident qeyd edib.

Müharibə ilə əlaqədar əlilliyi olan 2232 şəxs 61,1 min reabilitasiya vasitəsi, o cümlədən 490 şəxs 599 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 24,4 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,1 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Dövlət başçısının "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2017-ci il tarixli Sərəncamı bu istiqamətdə mühüm addımın atılmasına imkan verib. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlığını itirmiş qəhrəman Vətən övladları hər zaman diqqət və qayğı ilə əhatə olunub. Onların hər birinin aktiv həyat tərzinin təmin edilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir.

Müasir tələblərə uyğun qurulmuş reabilitasiya sistemi möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbçilərimizin də yüksək səviyyədə reabilitasiya xidmətləri ilə təminatında mühüm bazadır.

Əlbəttə ki, hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir. Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin, eləcə də əlillərin etibarlı sosial təminatı diqqətdədir. 44 günlük Vətən müharibəsində sağlamlığını itirmiş oğulların sağlamlığının bərpası və normal həyata qayıtmaları üçün dövlətimiz tərəfindən addımlar atılır.

***Nəzakət ƏLƏDDİNQIZI***






# Naxçıvan qovurması: o qadına qadın deyərlər ki...

***Azərbaycanın özünəməxsus ənənələri, mədəniyyəti, mətbəxi, iqlimi olan bölgələrindən biri də qədim Naxçıvandır. Naxçıvanın sərt iqlim şəraiti ilə əlaqədar deyərlər ki, burada soyuqlar noyabrda başlar, martda bitər. Buna görə də naxçıvanlılar bu soyuqlu-sazaqlı altı aya, qarşıdan gələn qışın qarlı-boranlı günlərinə qara yaz başlanan vaxtdan düz qar yerə düşənədək hazırlıq görərlər. Zirzəmilər, əl damları dağların-düzlərin, həyət-bacaların çeşid-çeşid məhsulları ilə doldurular ki, qışda ruzi bol olsun, el arasında deyildiyi kimi, əlini nəyə atsan, boşa çıxmasın.***

Martda göy gurlayıb çölün per-pencərini yeməyə halallıq verəndən camaat başlayar həm istifadə etməyə, həm də qışa tədarükə. Şıppır, ələyəz, əvəlik hörülüb qurudular, hər biri bir dərdin dərmanı olan həmərsindən tutmuş zirincə, yemişanadək, dağ nanəsindən tutmuş yarpıza, kəklikotuna, çobanyastığınadək qurudulub ayrı-ayrı yığılar. Çaşır, sobu, bolu, baldırğanın turşusu tutular, turş, şirin alça, ərik qurudular, alma-heyva dərilib xüsusi anbarlara yığılar, armud, üzüm zirzəmilərin bu başından o başına çəkilən ipdən asılar, cəviz, badam, fındıq çırpılar, kisələrə doldurulub üst-üstə toplanar. Həm həyətlərin, həm də çölün-düzün bütün nemətlərinin mürəbbəsi, kompotu hazırlanar. Həftəbecər qoyular, bircə həftəyə süfrəyə gətirildimi, ardınca taxta çəlləklərdə qış turşusu tutular. Bundan sonra əriştə kəsilər, sərilər, qurudular, qovurulub, götürülər. Buğda yuyulub, kirkirədə çəkilib yarmaya çevrilər və parça torbalarda qış ruziləri yığılan yerə qoyular. Bu işlər noyabrın axırlarınadək – çox soyuq düşməmiş yekunlaşdırılar. Bundan sonra qadınlarımızın qalar bir, həm də ən böyük, çətin işi – qovurma hazırlamaq. Söz vədəsinə çəkər: qovurmadan danışaq.

### Qışa hazırlığın ən son işi

Qovurma Naxçıvan mətbəxinə məxsus nəfis yemək növüdür. Naxçıvanda bineyiqədimdən hər bir nemət kimi, ət də qışa tədarük olunur. Ətin bu cür emal edilməsindən alınan yemək "Naxçıvan qovurması" kimi dillər əzbəridir. Bu həm qış ruzisi, həm də hazır yeməkdir. Qovurmadan qısa müddət ərzində 10-15 adda dadlı-tamlı yemək hazırlamaq olur. Baxmayaraq ki, qışa hazırlığın ən son işi qovurmadır, bu işin təməli əvvəlcədən qoyulur. Ya bir-iki il əvvəl, ya da fevralın axırı, martın əvvələri doğulan erkək quzuların ən gümrahı "qışın qovurmalığıdır", – deyə adlandırılır və o, xüsusi bəslənilir. Yayın sonlarınadək sürüyə ötürülən bu heyvanlar elə ki kərdikülə pozuldu, kökəldilmək üçün həyətdə saxlanılır. Bu vaxt kəndlərə yolu düşənlər həyətlərdə 2-3 göz muncuğu toğlunun, quzunun payızın sazağından budaqda tab gətirə bilməyib ağacların altına tökülən yarpaqları, xəzəlin altında gizlənib qalmış yaşıl otları şirin-şirin yediklərini, quyruqlarını oynada¬oynada ora-bura qaçdıqlarını görüblər. Baxır ilə, il sərt gələndə noyabrın axırları, yumşaq gələndə isə dekabrın ortaları, hələ bəzən sonları bu heyvanlar kəsilir, qışlıq ruzi hazırlanır.

### Qovurma Naxçıvanda kiçik bir mərasim şəklində edilir

Bu mərasimə evin ailə qurub ayrı yaşayan övladları, bir də ki ən yaxın qonşular dəvət olunurlar. Nənə-babalarımız deyərlər ki, qovurma etmək tək işi deyil, buna kömək lazımdır. Həm də bəzən bir heyvan yox, 2-si, 3-ü birdən qovurulur. Çünki bu qış ruzisi üçün övladlar da ata ocağına üz tuturlar. Həqiqətən də, belədir. Bunu dəfələrlə müşahidə etmişəm, ötən il isə Şahbuz rayonunun Nursu kəndində olarkən bir daha özlüyümdə bunu təsdiq etdim. Biz evə çatanda iki nəfər həyətdəki yaşlı tut ağacının budağından asılan qoçu soyurdu. Kimi ocağı qurur, kimi ortalığa qazan, ləyən, məcməyi, süzgəc gətirir, kimi də bu sazaqlı havada iş görənlərə bir stəkan çay vermək üçün samovara od salırdı. Bir azdan soyulmuş heyvan elə ağacdaca hissələrə bölünüb, yerə sərilmiş örtüyün üstündəki ləyənlərə yığıldı ki, ət bir qədər soyusun. Sonra kəndlərimizdə bütün evlərdə olan ət doğramaq üçün ərik ağacı kötüyü, bir də ət baltası gətirildi və ət qovurmalıq ölçüdə doğrandı. Əti qovurmalıq doğramaq da hər adamın işi deyil, kəndlərimizdə bunu bilən adamlar var ki, onlar qovurma edilən zaman köməyə çağırılırlar. Bu arada bir kənarda heyvanın quyruğu doğranıb qazana yığılıb ocağa qoyuldu ki, əriməkdə olsun. Ət də yuyulub böyük qazanda ocağa qoyuldu. Elə ki ət qaynara düşdü, qonşudan köməyə çağırılan ağbirçək Səkinə xala dedi ki, hə, burada əlli-ayaqlı olmalısan ki, kəf qarışmasın, yoxsa ətin rəngi tündləşər, təngov bulanıq olar. Elə buradan da maraqlı söhbət başlandı. Səkinə xala qovurmanın keyfiyyətli, dadlı çıxması üçün üç şərtə əməl olunmasını bildirdi: kəf təmiz yığılmalı, ət qaynadılanda və qızardılanda vaxtında götürülməli, bir də duzu qaydasında olmalıdır.




Marağımızı görən Səkinə xala ayağa qalxıb qolunu çırmaladı, dedi ki, gəlin mən göstərim, siz də görün. Onun ilk sözü bu oldu ki, qız-gəlin gərək yemək hazırlayanda, xüsusilə də xəmir yoğuranda, turşu qoyanda, qovurma edəndə önlük taxa, başına ləçək çala ki, hazırladığının içərisinə nə isə düşməsin. Təmiz-tarıq olmaq lazımdır ki, gördüyün işdən də gül ətri gəlsin. Bir də nənələrimiz deyərdilər ki, qış turşusunu qoyanda, əriştə kəsəndə, yarma hazırlayanda, qovurma edəndə heç vaxt ölümdən, xəstəlikdən danışmayın. Nəhs danışanda bu nemətlər də nəhs işlərə qismət olar. O, tez-tez ətə baxırdı ki, birdən vaxtı ötər. "Əti bir az diri götürmək lazımdır ki, qızardanda əzilməsin", – deyən Səkinə xala bir azdan hazırdır, – deyib, əti kəfkirlə süzgəclərə yığdı ki, suyu süzsün. Qazanın içərisində 10-15 tikə ət qaldı. Mən soruşanda ki, bəs bunu nə üçün götürmürsünüz? O dedi: – Qızım, qovurma edilən həyətdə həmin gün başqa yemək hazırlanmaz. Ətin suyunu göstərərək, bu, təngovdur, buna Naxçıvanın bəzi rayonlarında işgənə, cığatay, şor suyu da deyirlər. Görürsən, nə gözəl ətri var? Bilirsən niyə? Birincisi, ona görə ətirlidir ki, bizim ellərin heyvanlarını kökəldəndə əlimizə keçəni onun qarşısına tökmərik. Çölün-çəmənin güllü-çiçəkli otunun-alafının ətridir bu. İkincisi, 1-2 kiloqram əti qaynadanda belə gözəl ətir gəlmir. Burada 30-35 kiloqram ət bir yerdə qaynadığı üçün belə gözəl ətir verir.

"Yaxşı, ət suyunu süzənədək biz naharımızı edək", – deyən Səkinə xala səsləndi ki, boşqabları gətirin. Qızlar məcməyilərdə içinə quru lavaş doğranmış 10-15 boşqab gətirdilər. Səkinə xala boşqabların hərəsinə bir tikə ət, 1-2 çömçə təngov qoydu, iy gedir, – deyib ən yaxın 2-3 qonşuya da pay yolladı. Yemək həyətdəki tut ağacının altında yerə açılmış böyük bir xalçanın üzərindəki süfrə başında əyləşənlərə paylandı. Süfrədə sulanmış lavaş, cızdıq (quyruq əridildikdə yerdə qalan hissə), şəhrə (heyvanın ayrı-ayrı yerlərindən götürülmüş yağlı hissələrdir. Bu da quyruqla bir yerdə əridilir, lakin cızdıqdan fərqli olaraq onun üstündə ət də olur), çaşır, baldırğan, bir də ki illik turşu deyilən kələm, pomidor, bibər, kökdən ibarət qarışıq turşu var idi.

Səkinə xalanın həyat yoldaşı Elman kişi əlini çörəyə uzadandan sonra hamı yeməyə başladı. Təngovun isladıb yumşaltdığı quru çörəyin sulanmış çörək və turşu ilə yeyilməsi qədər dadlı başqa heç nə ola bilməz. Düzdür, Naxçıvan mətbəxindən hansı yeməyi yesən, bu fikirdə olursan, lakin qovurmanın belə mərasim şəklində hazırlanması və təngovun kollektiv şəkildə yeyilməsi milli mətbəximizin bu nümunəsini daha dadlı edir.

### O qadına qadın deyərlər ki...

Yeməkdən sonra süfrəyə ətirli samovar çayı gətirildi. Kişilərin işləri bitdiyinə görə kimi nərd, kimi də şahmat oynamağa başladı, qadınları isə Səkinə xala səslədi ki, ay qızlar, ocaq başına. Ocağın üstünə böyük bir teşt qoyuldu, quyruq yağı oraya boşaldıldı, yağ dağ olanda ət əlavə edildi, yaxşıca qızardıldı. O, aradabir ətdən götürüb boşqabın içərisinə qoyur, bıçaqla bölüb içinə baxır və deyirdi ki, yaxşı qızardılmasa, qovurma tez xarab olar. Sonra emallı vedrə gətirildi, birinci ətlər yığıldı, sonra üzərinə yağı əlavə olundu. Səkinə xala dedi ki, yağ əti ¬basmalıdır, yəni qabdakı ətin üzərindən 1-2 santimetr yuxarıda qalmalıdır. Əsl qovurma odur ki, öz yağı özünü bassın. Sonra vedrənin qapağını qoydu, ağız şirinliyi ilə yeyin, xeyir işlərə qismət olsun, – deyib, kəndirlə onun ağzını bağladı. Yenə də marağımızı görüb dedi ki, bəli, qovurma qış ruzisidir. Həm 15-20 gün qalmalıdır ki, bir özünü tutsun, həm də indidən ağzını qoydunsa bunun üstünə, bəs qışın şaxtasında nə yeyərsən? Qovurma qabının ağzı dekabr ayının sonlarında açılmalıdır. İndi yeməyə gör nələr var, amma qışda olmayacaq. Qışda hərdən bir¬-iki qaşıq götürüb sıyıq əriştəyə, yarma aşına, şep qovurmasına vurmalısan, yumurtanı onunla salmalısan ki, uşağın-böyüyün dizinə qüvvət, gözünə nur olsun. Qəflətən qonaq gələndə bir qovurma bozbaşı bişirib süfrəyə qoyaraq onu mətbəximizin zəngin nemətləri ilə tanış etməlisən. Bir də ki bu yerlərdə o qadına qadın deyirlər ki, yazın gözü açılana 1-2 bişirimlik qovurma saxlaya bilə ki, qazayağını, cacığı, çirişi, şepi onunla qovurub süfrəyə verə.

Səkinə xala maraqlı bir məsələyə də toxundu: "Bəzən qan təzyiqi olan adamlar və ya qoyun ətini sevməyənlər qovurmanı dana ətindən də edirlər. Amma ata-babadan qovurma qoyun ətindən hazırlanır. Dana ətindən edəndə onu mağazalarda satılan yağlarla və ya alınma quyruqla qovururlar. Bu qoyun qovurmasının dadını-ləzzətini vermir".

### Naxçıvan qovurmasının sorağı ilə...

İlin bu vədəsində Naxçıvan daha çox qonaqlı-qaralı olur. Çünki bu yerin sakinləri ilə yanaşı, buraya səfər edib qovurmanı dadan və dadı damaqlarında qalan insanlar da artıq Naxçıvan qovurmasının vurğunudurlar. Çünki qovurma zaman-zaman bu qonaqlar üçün açılan süfrələrə düzülən bir-birindən dadlı nemətlərdən olub. Onu dadanlar isə "bu nədir, necə hazırlanır" kimi sualları bir-birinin ardınca yağdırıb, bu nemətin dadına heyran qaldıqlarını həmişə bildiriblər. Bu səbəbdən də hər payız qovurmanın sorağı ilə qədim diyara üz tutur, istər şəxsi ailə təsərrüfatlarında hazırlanan, istərsə də ət və ət məhsulları emalı müəssisələrində istehsal olunan qovurmadan alır və soyuq fəslin ruzisi kimi qışa saxlayırlar.

Artıq Naxçıvan qovurmasının Bakıda, Gəncədə satışları həyata keçirilir. Və doyulmaz dadı olan bu nemət hər kəsin zövqünü oxşayır. Odur ki, harada satılmasından asılı olmayaraq Naxçıvan qovurmasının sevənlər uzaq məsafə də olsa, qət edib qovurma sorağı ilə həmin ünvana gəlir və onu dadırlar. Necə ki, gözəl ölkəmizin hər bir regionuna məxsus məhsulların sorağı ilə məsafələr qət edirik, Naxçıvan qovurması üçün də eynilə. Gedirik, alırıq, süfrələrimizi bəzəyirik.

Hər zaman süfrələrimiz açıq, bir-birindən gözəl nemətlərimizlə bol olsun.

***Mətanət Məmmədova***

# Ekoturizm: hansı potensiala malikdir və nə kimi problemlər var?

***Azərbaycanda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərini təşkil edir. Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması üçün ekspertlər klaster yanaşmanı məqbul sayırlar. Kalster yanaşma zamanı Azərbaycanda perspektivi aydın görünən bir neçə sahənin inkişaf etdirilməsi əsas götürülür. Azərbaycanda belə sahələrdən biri də turizm sektorudur.***





Digər sektorlardan fərqli olaraq turizm ekologiyaya zərər vurmayan, xammal və ya industrial texnologiya tələb etməyən, faydalı qazıntıların istifadəsinə ehtiyac duymayan bir sektordur. Təsadüfi deyil ki, bir çox ölkələrin əsas gəlirləri məhz bu sektordan əldə olunur.

Azərbaycan çoxcəhətli təbii şəraiti, olduqca zəngin mədəni və təbii resursları, xarici və daxili turizmin təşkili üçün böyük potensiala malikdir. Respublikamızın əlverişli iqlim şəraiti, ilboyu zirvələri qar və buzlaqlarla örtülü olan ecazkar quruluşu, cəlbedici landşaftı, çoxsaylı dağ çayları və şirinsulu gölləri, insanı heyrətə gətirən şəlalələr, yüzlərlə mineral və müalicəvi bulaqlar, narın qumlu dəniz çimərlikləri, palçıq vulkanları, qədim tarixi-mədəni və dini abidələr və s. ölkədə daxili və xarici turizmin inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Təbii ki, bu imkandan səmərəli formada yararlanmaq üçün bir sıra digər tədbirlərin də həyata keçirilməsi zəruridir.



## *Kənd turizminin inkişafı iqtisadi gəlirlərini artırmaqla yanaşı, əhalinin sosial rifahının yaxşılaşmasına da töhfə verə bilər*

Son illər Azərbaycanda yuxarıda qeyd edilən problemlərin həlli, o cümlədən infrastruktur sahələrin inkişafı istiqamətində irimiqyaslı yerli, regional və beynəlxalq layihələr həyata keçirilməkdədir. Bu layihələr müxtəlif istehsal və xidmət sahələrini əhatə etməklə ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynamaqdadır. Həyata keçirilən layihələrin prioritet istiqamətlərindən biri də infrastruktur sahələrin təkmilləşdirilməsi və müasir tələbata uyğunlaşdırılmasıdır. Bu da təbiidir, çünki köhnə, müasir standartlara cavab verməyən infrastruktur sahələrlə hər hansı inkişafa nail olmaq qeyri-mümkündür.

Bu gün infrastruktur layihələrinə dövlət büdcəsindən ayırmaların ilbəil yüksək templə artması dövlətin bu məsələyə necə böyük həssaslıqla yanaşdığını göstərir. Müşahidə və təhlillərdən aydın olur ki, ölkəmizdə son 10 ildə sürətlə inkişaf edən sahələrdən biri də nəqliyyat sektorudur.

Nəqliyyat xidmətlərinin, yolların və s. inkişafı isə dolayı yolla digər iqtisadi sahələrin dirçəlişinə təkan verir. O cümlədən, bu gün Azərbaycanın ən ucqar kəndlərinədək rahat yolların çəkilməsi, ölkəmizin Şərq-Qərb, Şimal-Cənub kimi iri beynəlxalq nəqliyyat dəhlizlərinin qovşağında yerləşməsi turizm sektorunun da inkişafına ciddi təsir göstərməkdədir.

Belə ki, həm ölkə daxilində, həm də beynəlxalq səviyyəli yolların yenidən qurulması, yeni yolların çəkilişi ölkənin Avropa və Asiya arasında yerləşən nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da yüksəldir. Azərbaycanın tranzit potensialı artdıqca isə ölkə ərazisindən tranzit kimi istifadə edən xarici daşıyıcıların sayı da çoxalır. Bu da turizmin inkişafında mühüm rol oynayır.

Məlumdur ki, turizmin inkişafında daxili turistlər də xüsusi rol oynayır. Xüsusən, ölkəmizdə kənd turizminin inkişafı əsasən daxili turistlərdən asılıdır. Belə ki, turizmin ekoloji turizm, qış turizmi, idman turizmi və s. müxtəlif növləri içərisində kənd turizmi daha geniş yayılıb. Eyni zamanda, Azərbaycanda da kənd turizminin inkişaf etdirilməsi üçün çox geniş potensıal imkanlar mövcuddur.

Ümumiyyətlə, kənd turizmi Avropa ölkələrində XX əsrin 70-ci illərindən başlayaraq inkişaf edən ekoturizmlə bağlı olub. Kənd turizmi insanların ətraf mühitlə bağlılığına aid olduğuna görə müasir dövrdə ekoturizmin tərkib hissəsi kimi çıxış edir.

Hər bir ölkədə, xüsusilə də əhalisinin təqribən yarısı kənd yerlərində yaşayan Azərbaycan kimi ölkələrdə kənd turizminin inkişafı çox vacibdir. Çünki kənd turizmi şəhər mühitinin kənd mühiti ilə əvəz olunması ilə yanaşı, kənd yerlərində kiçik sahibkarlığın inkişafının, kənd təsərrüfatı məhsullarının istehlakçılara birbaşa çatdırılmasının təmin edilməsində, bölgələrin mövcud potensialından səmərəli istifadə olunmasında xüsusi əhəmiyyətə malikdir.

Araşdırmalardan aydın olur ki, kənd turizmi ümumilikdə, milli park və təbiət ərazilərindən istifadəyə, insanların istirahət tələbatında ətraf mühitlə bağlılığa, mədəni və milli irs nümunələrindən, eləcə də tarixi memarlıq abidələrindən istifadəyə, yüksək keyfiyyətli yaylaq havasına və müalicəvi bulaq sularına daimi tələbatın olmasına əsaslanır .

Azərbaycanda kənd turizminin sürətli inkişafı XX əsrin 70-80-ci illərinə təsadüf edir. Bu dövrdə şəhər əhalisinin kəndlərə istirahətə getməsi daha da kütləviləşdi. Təbii ki, kütləvi axında əsas hissəni əhalinin orta və aztəminatlı təbəqəsi təşkil edirdi. Son dövrlərdə daxili tursitlərin sayı daha da artıb. Bütün bunlar isə təbii ki, son nəticədə turizmin inkişafına təkan verir.

Son illər ölkədə həyata keçirilən genişmiqyaslı islahatlar, əksər regionlara və sahələrə dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində bir çox problemlər tədricən öz həllini tapıb, ölkədə kənd turizminin inkişafı üçün münbit şərait formalaşdırılıb. Bu sahədə isə nəqliyyat əlaqələrinin genişlənməsi, ən ucqar yaşayış məntəqələrinədək abad yolların çəkilməsi, nəqliyyat xidmətlərinin keyfiyyətinin yüksəlməsi xüsusilə əhəmiyyətli olub.

Avtomobil yollarının yenidənqurulması və təkmilləşdirilməsi nəinki kənd turizminin, ümumilikdə ölkə turizminin inkişafında mühüm rol oynayır. Son dövrlər, hətta ən mürəkkəb coğrafi şəraitə və dağlıq relyefə malik ərazilərlə nəqliyyat əlaqələri yaradılıb. Ən yüksək zirvədə yerləşən, rəngarəng təbiəti və gözəl mənzərələri olan kəndlərə yol çəkilişi buna sübutdur. Bu ərzilərdə keyfiyyətli turizm xidmətlərinin təşkili ilə yolların çəkilişinə sərf edilən vəsaiti tezliklə dövlət büdcəsinə qaytarmaq və turizmi büdcənin əsas gəlir mənbələrindən birinə çevirmək olar.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da böyük turizm potensialı var, tezliklə bu potensialdan istifadə edilməsinə başlanacaq. Bu zonalarda kənd turizmi, dağ turizmi, ekoturizm, ekstremal turzim daha çox potesiala malikdir. Qış turizmi də bu zonalarda böyük perspektivə malikdir. Yeri gəlmişkən, dağlarda yerləşən iri turizm müəssisələrinin qiymətləri çox baha olduğundan əksər yerli turistlər onlardan bəhrələnə bilmir. Kənd turizmi inkişaf etsə, rəqabət çoxalacaq və sadə insanlar da qış turizmindən yararlana biləcək.

Bütün bunlarla yanaşı, son illər, regionlarda- beynəlxalq standartlara cavab verən hava limanlarının tikintisi, rayonlararası və kəndlərarası yollarının yenidən qurulması və yeni yol çəkilişləri turizmin inkişafına verilən müsbət təsir edir.

Turizmin, o cümlədən kənd turizminin inkişafı nəqliyyat və onun infrastruktur sahələrinin inkişafı ilə bir kompleks əmələ gətirir. Bütün bunlar isə ölkədə həyata keçirilən infrastruktur layihələrin turizmin inkişafında, yeni yol çəkilişlərinin isə kənd turizminin inkişafında xüsusi əhəmiyyəti olduğunu bir daha sübut edir.

Son illərdə ölkəmizdə istirahətə və səyahətə üstünlük verən yerli və əcnəbi turistlərin xeyli artması bu sahənin klaster yanaşmada ən vacib sahələrdən olduğunu göstərir.

Kənd turizmi kiçik sahibkarlığı inkişaf etdirməyə, məşğulluq probleminin həllinə töhfə verməyə, kənd əhalisinin gəlirlərinin artmasına və sosial rifahının yaxşılaşmasına qadirdir. Bunun üçün dövlətin bu sahədə bəzi güzəştlər tətbiq etməsi və stimullaşdırıcı tədbirlər həyata keçirməsi məqsədəuyğundur. Misal üçün, turizm bölgəsində yaşayan və normal tələblərə cavb verən evi olan kənd sakinlərinə çox aşağı faizlərlə uzunmüddətli kreditlərin verilməsi həm onların özünüməşğulluğunun təmin edilməsini təmin edə bilər, həm də dövlət büdcəsinə bu fəaliyyətdən köçürülən məbləğlər artar. Həm də əhalinin aşağı gəlirli təbəqəsi də ucuz qiymətə bu turizmdən istifadə edə bilər.

Beləliklə, çox az xərclə tez və yaxşı gəlir əldə ediləcək sahələrdən birinin ekoturizm olduğu aydın olur. Əhalinin müəyyən bir hissəsinin xaricdə yox, ölkə daxilində turizmdən istifadə etməsi ölkədən valyuta çıxışını azaldar, üstəlik xarici turistlərin və belə sərfəli xidmətlərdən istifadə etməsini təmin etməklə ölkəyə valyuta gəlirlərinin artmasına töhfə verə bilər.

***Elçin Bayramlı***

# Rusiya səfiri: “Qısa vaxtda Qarabağda fantastik işlər görülüb”



*Mixail Yevdokimov: “Qısa müddətdə bütöv şəhərlər, yeni yollar salındı, infrastruktur bərpa olundu. İnsanlar öz tarixi torpaqlarına qayıdır, dinc həyata başlayırlar. Və bu, böyük hörmətə layiqdir”*





Azərbaycanda rus dilinə maraq yüksək səviyyədə qalır. Ölkədə rus dilində tədris sektoru olan 340-a yaxın məktəb var ki, orada 140 minə yaxın uşaq təhsil alır. Ölkənin 15 mindən çox vətəndaşı rus dilində ali təhsil alır. Rusiyanın səfiri Mixail Yevdokimov Bakıda Mixail Lermontovun anadan olmasının 210 illiyinə həsr olunmuş qala gecəsi çərçivəsində “Moskva-Baku” portalına müsahibəsində Azərbaycan Respublikasında rus dili ilə bağlı vəziyyətlə bağlı fikirlərini bölüşüb. Səfirin müsahibəsini oxucularımıza təqdim edirik.

**- Mixail Nikolayeviç, rus dilinin Azərbaycanda mövqeyi necədir?**

- Əvvəllər olduğu kimi, Azərbaycanda rus dili çox populyardır, ona tələbat var. Ölkənin məktəb və universitetləri təkcə rus dilini öyrənmək deyil, həm də orada təhsil almaq imkanı yaradır, ali təhsil sistemində yüksək ixtisaslı rusiyalı mütəxəssislər çalışır, Bakı küçələrində isə demək olar ki, hər kəs rus dilində danışa bilir. Bakıda hər il azərbaycanlı məktəbli və tələbələrin iştirak etdiyi müxtəlif mədəni-maarif layihələri, müsabiqələr və olimpiadalar həyata keçirilir. Və bu, əlbəttə ki, bizi yalnız sevindirir. Elə bu günlərdə dahi rus şairi və yazıçısı Mixail Lermontovun anadan olmasının 210 illiyinə həsr olunmuş qala gecəsində iştirak etdim. O, “Mixail Yuryeviç Lermontov və Qafqaz” respublika layihəsi çərçivəsində təşkil olunub. Təsəvvür edin, bu layihədə rus dilini sevən və rus klassiklərini orijinalda oxumaqdan həzz alan 700-dən çox azərbaycanlı gənc iştirak edib.

Bu qəbildən olan layihələr bir daha sübut edir ki, Azərbaycan rəhbərliyi ölkədə rus dilinin inkişafına böyük önəm verir. Və biz bu dəstəyi hər gün hiss edirik. Biz görürük ki, azərbaycanlı uşaqlar həm ana dilində, həm də rus dilində necə mükəmməl danışırlar. Təbii ki, belə humanitar və mədəni tədbirlər Azərbaycan və Rusiya xalqlarını bir-birinə daha da yaxınlaşdırır, bir-biri ilə sərbəst ünsiyyət qurmaq imkanı yaradır. Burada rus klassiklərinin əsərləri çox populyardır. Azərbaycanlılar Puşkini, Dostoyevskini, Turgenevi, Çexovu, Yesenini, Lermontovu orijinalda həvəslə oxumağa davam edirlər. Rus klassiklərinə olan bu sevginin gənc nəslə necə ötürüldüyünü görmək xüsusilə xoşdur

**- Bu ilin martında portalımıza müsahibələrinizin birində Bakıda yeni Rusiya-Azərbaycan universitetinin açılmasının nəzərdə tutulduğunu demişdiniz. Proses necə gedir?**

- Biz bunun üzərində fəal işləyirik. Bu günlərdə Azərbaycan Təhsil Nazirliyinin nümayəndə heyəti Sankt-Peterburqda səfərdə olub. Rusiyalı həmkarları ilə görüşdə Rusiya-Azərbaycan universitetinin yaradılması layihəsini hazırlayacaq birgə işçi qrupunun təşkili qərara alınıb. Deməli, proses irəliləyir... Biz də Azərbaycan məktəblərində rus sektoruna əlavə olaraq Rusiyanın Azərbaycandakı səfirliyinin nəzdində məktəb açmaq istəyirik. Yeni məktəbdə uşaqlar Rusiya standartları üzrə təhsil alacaqlar. Müvafiq olaraq, məktəbi bitirmə sertifikatları həm Azərbaycanda, həm də Rusiyada ali məktəblərə qəbul zamanı tanınacaq.

**- Bəs mədəniyyət və təhsil sahəsində digər birgə layihələr necə olacaq?**

- Planlarımız çoxdur. Gələn il Rusiya kinosu festivalları, rus incəsənət ustalarının ustad dərsləri, eləcə də təhsil nümayəndələri ilə görüşlər təşkil olunacaq. Azərbaycan ictimaiyyətinin rus dilində olan mədəni tədbirləri necə müsbət qarşıladığını görürük. Bakıda rusiyalı qonaqları həmişə köhnə, yaxşı dost kimi qarşılayırlar. Rusiya komandaları və nümayəndə heyətləri özləri də böyük məmnuniyyətlə Azərbaycana gəlirlər. Əminəm ki, hər il belə səfərlər daha çox olacaq.

**- Artıq iki ildir ki, Azərbaycanda yaşayır və işləyirsiniz. Respublikanın hansı ərazilərində olmusunuz?**

- Bu müddət ərzində mən dörd dəfə Qarabağa səfər etmişəm. Füzulini, Laçını, Kəlbəcəri gördüm. Azərbaycanın Rusiyadakı keçmiş səfiri Polad Bülbüloğlunun dəvəti ilə onun doğulduğu Şuşaya səfər etmişəm. Polad Bülbüloğlu mənə doğulduğu evi göstərdi. O vaxt Bülbülün ev-muzeyinin ərazisində beynəlxalq vokal müsabiqəsi keçirilirdi və konsertdə iştirak etməkdən məmnun qaldım. Qarabağ gözəl təbiəti, təmiz havası olan gözəl bölgədir. Orada ölçülü, sakit bir həyat sürə bilərsiniz. Bugünkü Qarabağ həm də hər kəs üçün nəhəng quruculuq layihələri, böyük imkanlar deməkdir. Qısa müddətdə bütöv şəhərlər salındı, yeni yollar salındı, infrastruktur bərpa olundu, elektrik stansiyaları tikilib istifadəyə verildi. Azərbaycan rəhbərliyinin fantastik işi və inanılmaz səyləri öz bəhrəsini verdi. İnsanlar öz tarixi torpaqlarına qayıdır, dinc həyata başlayırlar. Və bu, böyük hörmətə layiqdir.

**- Hələ hara getməmisiniz, amma həqiqətən getmək istərdiniz?**

- Gəncəyə. Mənə dedilər ki, bu, qədim tarixə malik çox gözəl şəhərdir. Dahi Nizami Gəncəvinin doğulduğu yer. Hər şey yoluna düşsə, ilin sonuna qədər mütləq Gəncəyə gedəcəm. Rusiya yük maşınları - KAMAZ və Ural istehsal edən Gəncə Maşınqayırma Zavodunun yubileyi münasibətilə keçiriləcək qala tədbirində də iştirak etməyi planlaşdırıram. Əminəm ki, məni maraqlı və maarifləndirici səfər gözləyir...

***Tərcümə - Elçin Bayramlı***

# “Biz”siz bizlər...

FELYETON



Biz əvvəllər belə deyildik, görəsən nə oldu bizə? Bəlkə əvvəllər bizi bizləyənlər çox idi. Elə ki, onlar rəhmətə getdi, biz də artıq bizsiz davam etdik. Və gəlib bu günlərə çatdıq.

Biz nə edirik? Biz yolu işıqforda qırmızı, yaşıl, hansı yandı, dəxli yoxdur keçirik. Lakin əvvəllər dayanıb gözləyirdik ki, yaşıl işıq yansın.

Biz görürük ki, birazdan yaşıl işıq yanacaq, buna məhəl belə qoymuruq, maşını sürüb ağ zolağın-piyada keçid xəttinin üzərində saxlayırıq. İnsanlar maşınların arası ilə ilan kimi qıvrıla-qıvrıla keçməli olur.

Biz nə edirik? Səhər yuxudan beş-on dəqiqə tez qalxmaq əvəzinə, yatıb qalırıq, sonra da işə tələsdiyimiz üçün küçədə qaçır, yanımızdan ötənlərə necə bir təkan vururuqsa, az qalır kəlləsi asfaltın üstündə parça-parça olsun.

Sonra gəlirik metroya, eskalatorda necə qaçırıqsa, az qalır bu yazıq pilləkən relsindən çıxıb darmadağın olsun.

Bizim əvvəlki biz olmadığımızın sübutu bilirsiniz nədir? Biz sağ və sol tərəfimizi tanımırıq artıq. Baxmayaraq ki, metroda mikrofondan dayanıb-durmadan elan olunur ki, sağda dayanın, sol tərəfi keçid üçün boş saxlayın, lakin nə fayda. Bu sözləri gün ərzində min dəfə söyləyən o yazıq qızı heç bir dəfə də dinləyən yoxdur.

Əşi, bu sağ-sol məsələsi dəhşətdir ey... Metroda qatardan düşənlər elə bilir ki, platforma ta onlarındır. Elə yayılırlar bu dar çığıra ki, yanlarından bir iynə də o tərəfə keçə bilməz. Deyirəm ay sağ- sol məsələsi, görəsən sənə əməl edən olacaqmı?

Biz vallah-billah, biz deyilik artıq. Ay qardaş, ay bacı, biz bir-birimizdən Allahın salamını kəsmişik ey... Girirsən liftə, salam verirsən, camaat almır. Ya düşünürlər ki, əşi heç hənanın yeridir, ya da ölməz şair demişkən, axı salam nə yeməli, nə də içməlidir, niyə alsınlar, hələ bir ağızlarını ağrıdıb, cavab versinlər...

Əvvəllər insanların bir-birinə hörmətsayğısı var idi. Yuxarı mərtəbələrdə yaşayanlar aşağıdakıları düşünürdü. Səs-küy salmamağa çalışırdı. İndi artıq belə deyil. Aşağıdakı insanları düşünmək nədir, kim nə bilir üstdə edir. Canı çıxsın qonşunun, dözür, dözsün, dözmür, köçsün.

Bir az sakit olsan, vallah adam var ki, çıxıb başında əyləşər. Məsələn, gedirsən süd almağa. Görsə ki, bir az yumşaq adamsan, nə utanacaq, nə də çəkinəcək. Gəlib keçib qarşında dayanacaq. Sanki səhərdən bəri gəlib ona burada növbə saxlamalı imişsən.

Vallah, gəl, bunları gör, yaşa görüm, əsəbləşmədən, sakit necə yaşaya bilirsən. Allah sənə rəhmət eləsin, Molla Nəsrəddin. Haradadır o iynən, bizin, gəl, onları da gətir, görünür, bəziləri onlarsız ötüşmür. İynəni, bizini işə sal ki, bizlər yenə əvvəlki bizlər ola bilək.

***Mətanət Məmmədova***





# Cəbrayıl növbəti köç karvanını qarşıladı



## Qarabağda və Şərqi Zəngəzurda 30 minə yaxın insan yaşayır

"Dəmir yumruğ"un gücü, Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi, xalqın Ali Baş Komandanın ətrafında bir yumruq olaraq birləşməsi nəticəsində 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız azad olundu. Azərbaycan Prezidenti İlham Əliyev işğaldan azad olunan torpaqlarımıza səfər edərək, erməni vandallarının törətdiyi əməlləri bir daha xalqımıza göstərir və bu ərazilərdə görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verir, açılışlar edir, yeni təməllər qoyur. Artıq davamlı olaraq işğaldan azad olunan ərazilərimizə əzəli sakinlər Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan əzazilərə qayıdırlar. Növbəti köç Cəbrayıl şəhərinə yol alıb. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Cəbrayıl şəhərinə 34 ailə - 129 nəfər köçürülüb. Doğma yurda qayıdan Cəbrayıl sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. proritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir. İnkişaf strategiyası nəticəsində dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir. Qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilib. Bu prioritetlərə söykənən dövlət başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə 16.11.2022-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edildi.

İşğaldan azad olunan ərazilərimizin təmir və bərpasına 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılmışdır.

### MÜASİR CƏBRAYIL VƏ RAHAT-FİRAVAN HƏYAT

Cəbrayıl rayonunun işğalı zamanı rayon 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. 2016-cı ilin aprel döyüşlərində ordumuz düşmən qüvvələrini Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur etdilər. Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VIII-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. 2020-ci ilin oktyabrın 18-i də tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu.

Bu gün Azərbaycan xalqı rahat nəfəs alır. İşğal altında olan torpaqlarımız azad olunub. Azərbaycanın müharibədə qalib gəlməsindən altı gün sonra, noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdilər. Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmiş 12523 hərbi qulluqçu medalla təltif edildi.

### 2040-CI İLİN SONUNA QƏDƏR CƏBRAYIL ŞƏHƏRİNDƏ 15 000 SAKİN YAŞAYACAQ

Cəbrayıl şəhərinin Baş planına əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Qeyd edək ki, rayon ərazisində bir çox tarix-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək. Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 km uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 km-dən çox olacaq.

### MÜASİR STANDARTLARA UYĞUN 3 TAM VƏ ORTA TƏHSİL MÜƏSSİSƏSİ

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb.

Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18%-i yaşıl zonalardan ibarət olacaq. Əhalinin əsas istirahət zonası olaraq Çaylaqçay ətrafında salınması təklif edilən "yaşıl zolaq" mərkəzi park olaraq müxtəlif mədəni tədbirlərin keçirilməsi üçün əhalinin açıq məkanlara çıxışını təmin edəcək.

Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və bu ərazilərdə reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, əzəəli torpaqlarımız yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib.

**ZÜMRÜD BAYRAMOVA**

*“Gürcüstanda hakim partiya Gürcüstanın müstəqil siyasət yeritmə taktikasını həyata keçirməkdədir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert, Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, politoloq Azad Məsiyev deyib.*

# “AB-yə gəlmək istəyirsənsə, biz deyən havaya oynamalısan"

ŞƏRH



O bildirib ki, ”Gürcü Arzusu partiyasının bu cür siyasəti başda Birləşmiş Ştatlar olmaqla Qərbi qane etmir: ”Birləşmiş Ştatlar və Qərb açıq şəkildə Gürcüstanı öz təsirinə salıb Rusiya əleyhinə istifadə etmək istəyir. ”Xarici Agentlər” haqqında qanunun qəbul edilməsi prosesində də Gürcüstan müstəqil qərar qəbul etdi. Baxmayaraq ki, Birləşmiş Ştatların və Qərbin açıq təzyiqi var idi. Gürcüstan dövləti açıq şəkildə deyir ki, biz Avropaya inteqrasiya etmək istəyirik, ancaq müstəqil şəkildə dövlət və milli maraqlarımızı qorumaq şərtilə. Qərb isə əksinə deyir ki, Avropa Birliyinə gəlmək istəyirsənsə, biz deyən havaya oynamalısan. Yəni Avropanın və Amerikanın maraqlarına uyğun davranmalısan. Bu isə Gürcü xalqının dövlət və milli maraqlarına uyğun gəlmir.

Gürcüstanda demokratik seçki keçirildi. Xalq ”Gürcü Arzusu” partiyasına səs verdi. 54% səslə qalib gəldi. Gürcüstanda keçirilən bu seçkini Birləşmiş Ştatlar və Qərb tanımaq istəmir. Açıq şəkildə Gürcüstanda keçirilən seçkiyə kölgə salmaq istəyirlər. Baxmayaraq ki, həmin seçkilər elektron qaydada keçirilmişdi. Azərbaycandan da deliqasiya var idi, seçkinin demokratik keçirilməsini bəyan etmişdi. Gürcüstanın bu seçkidə qələbəsinin Qərb və Birləşmiş Ştatlar tanımadı. Açıq şəkildə Gürcüstan rəhbərliyinə qarşı sanksiya ilə çıxış etdilər. Bu cür davranış birbaşa Gürcüstanı təhdid etmək idi. Gürcüstanın baş naziri açıq şəkildə bəyan etdi ki, bizi şantaj edirsiniz, bu cür davranış nə beynəlxalq hüquqa uyğun gəlir, həm də Gürcüstanın müstəqil dövlət olmasına təhdiddir. Gürcüstanda ikihakimiyyətlilik meydana gəlib. Gürcüstanın prezidenti açıq şəkildə Gürcüstanın maraqlarına yox, Qərbin maraqlarına xidmət edir, dövlət çevrilişinə çağırış səsləndirir. Açıq şəkildə bəyan edir ki, Gürcüstanda yeganə hakimiyyət odur. Gürcüstan müxalifətini Qərbin dəstəyi ilə üsyana çağırır. Dövlətin strateji obyektlərinin tutulmasına sövq edir. Bu da dövlət çevrilişidir.

Gürcüstanda baş verən hadisələrin demokratik dəyərlərə heç bir aidiyyatı yoxdur. Çünki demokratiyanın təməl prinsiplərindən biri azlığın çoxluğa tabe olmasıdır. Bu gün Gürcüstanda azlıq çoxluğa tabe olmur, çünki Gürcüstanda xalq seçkini keçirdi, ”Gürcü Arzusu”na səs verdi. Bu gün ”Gürcü arzusu” partiyası hakim partiyadır. Çoxluq bu partiyaya səs verib. Amma Tbilisidə 10 minə yaxın insan açıq şəkildə dövlət çevrilişinə cəhd üçün addımlar atır. Gürcüstanda meydan hərəkatını təkrarlamaq istəyirlər. Birləşmiş Ştatlar demokratiya ideyası altında fərqli dövlətlərdə çevriliş edir, Gürcüstanı işğal etmək istəyir. Gürcüstanın hakim partiyası Qərbin bu cür davranışlarını qəbul etmir və ona adekvat cavab verir. Guya, ”Gürcü Arzusu” partiyası Rusiyayönümlüdür. Bunu da Gürcü kütləsinə sırımaq istəyirlər. Əslində dərindən analiz etsək, baxarıq ki, ”Gürcü arzusu” partiyası hansı platformada Rusiya ilə əməkdaşlıq edir. Nə MDB təşkilatında, nə Avrasiya İqtisadi Birliyində, nə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında, 3+3 formatı çərçivəsində Rusiya ilə əməkdaşlıq etmir. Sadəcə Qərb bu cür psixoloji müharibə aparır və Gürcüstanın hakim partiyasını Rusiyameyill siyasət yürütməkdə ittiham edirlər”.

Gürcüstanda baş verən hadisələr dolayısı ilə Azərbaycana da bir mesajdır. Əgər Gürcüstanda Birləşmiş Ştatlar demokratiya ideyası altında dövlət çevrilişi edib münasib hakimiyyət qurarsa, növbəti addım Azərbaycan olacaq. Çünki Azərbaycan Cənubi Qafqazın aparıcı dövlətidir. Birləşmiş Ştatlar Ermənistan və Gürcüstanı öz təsirinə alarsa, növbəti addım Azərbaycan olacaq. Gürcüstanda baş verən xaos Qərbin Cənubi Qafqazda aparacağı xaosun başlanğıcıdır” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

---

# Müsavatın keçmiş üzvü Trol Sadıqlının tərbiyəsizliyi

## *Bu məxluqun əxlaqsız davranışı soykökündən gəlir*



ANALİZ

Məlum faktdır ki, əxlaq və mənəviyyat bəşər övladının hər birinin mənəvi keyfiyyətini, əhvaliruhiyyəsini müəyyən edən etik normadır. Əxlaq həm də insanların öz davranışları ilə millətinə, dövlətinə hörmət göstərməyi, işlədiyi, çalışdığı yerdə iş yoldaşlarına, öz ailəsinə, bütövlükdə cəmiyyətə rəğbət nümayiş etməyin ifadəsidir. Bu prinsiplərdən və qaydalardan uzaq olan kəs insan hesab edilə bilməz. Daha doğrusu, cəmiyyətin normal üzvü olduğunu demək çətindir. Əxlaqdan və mənəviyyatdan kənar olan kəs əksər hallarda cinayətə meyilli olur, dövlətinə və xalqına qarşı satqınçılıq edir, xəyanət yolu tutur. Sübuta yetirilir ki, belə şəxslərdə anormallıq gendən gəlir. Misal üçün xaricdə oturub Azərbaycan xalqını təhqir edən, dövlətə qarşı ittihamlar irəli sürən istənilən antimilli ünsürün tərcümeyi-halına baxmaq kifayət edər. Leyla Yunus, Orduxan Temirxan, Arif Yunus, Trol Sadıqlı, Manaf Quliyev, Məhəmməd Mirzəli, Arif Məmmədov, Sevinc Osmanqızı və digərləri gendəngəlmə əxlaqsız və tərbiyəsiz insanlardır. Hər birinin nəsil-nəcabətini, şəcərəsini səthi araşdırsan ortaya kifayət qədər qüsurlar çıxar. Hazırda Almaniyada oturub ölkəmizə qarşı hədyanlar səsləndirən Trol Sadıqlı həmin qüsurlu şəcərəyə malik antimilli ünsürlər arasında ən yaramazı və əxlaqsızıdır. Çünki bu məxluqun ulu babası, sonradan atası, qardaşı, nəhayət özü düzgün həyat tərzinə və əxlaqa sahib insanlar olmayıblar. Trol Sadıqlının ata-babası Sadıqov Əhəd Əvəz oğlu 1951-ci ilin oktyabrında Ağdam rayonu Əhmədağalı kəndində azyaşlı qızı zorladığına görə Azərbaycan SSRİ Cinayət Məcəlləsinin 18 və 193-cü maddəsi ilə 8 il müddətinə azadlıqdan məhrum edilib. Deyilənlərə görə, Əhəd Sadıqov çirkin əməlinə görə həbsxananın yazılmamış qanunları əsasında dustaqlar tərəfindən də ciddi şəkildə cəzalandırılıb. Azadlığa çıxdıqdan sonra da dinc dayanmayan Ə.Sadıqov 03.10.1961-ci il tarixdə SSRİ CM-in 15 və 83-cü (oğurluq yolu ilə dövlət əmlakının mənimsənilməsi) maddələri ilə təqsirli bilinərək 1 il müddətinə azadlıqdan məhrum edilib, 3 ay 19 gündən sonra vaxtından əvvəl şərti azadlığa buraxılıb, 31.08.1969-cu il tarixdə SSRİ CM-in 105-ci (qəsdən az ağır bədən xəsarətləri) maddəsi ilə 2 il şərti azadlıqdan məhrum edilib. Turla Sadıqlının atası Əlövsət Sadıqlı qonşunun iribuynuzlu heyvanlarını oğurladığına görə həbs olunub. Qardaşı Elgiz Əlövsət oğlu Sadıqov isə narkotikdən istifadəyə və satışına görə, həbs olunaraq layiq olduqları cəzanı alıblar.

### Trol Sadıqlı Müsavata üzv oldu və Fransaya getdikdən sonra İsa Qəmbəri söyməyə başladı

“Su axıb, çuxurunu tapar” el məsəli səbəbsiz yerə deyilməyib. Babası, atası, nəhayət qardaşı mənəviyyata, əxlaqa, qanunlara zidd əməllər törədibsə, Trol Sadıqlının fərqli yol tutması mümkünsüzdür. Demək olar ki, T.Sadıqlı babasının pedofil, cinayətkar əməlini bir qədər də inkişaf etdirməklə ona “rəhmət oxutdurmağa” çalışır. Naxçıvan Dövlət Universitetində təhsil aldığı zaman T.Sadıqlı pozğun həyat tərzi keçirməyə üstünlük vermiş və Universitetdə təhsil alan, xüsusilə də 2005-ci ildə Naxçıvan Dövlət Universitetində təhsil alan Qətərli Monaz Zibeydə adlı qızı aldadaraq özünün məkrli toruna salmağı bacarıb. Hətta onu Bakıya gətirərək, oteldə başına oyun açıb. Monaz Zibeydə hamilə qaldığı zaman T.Sadıqlı həbs olunacağından qorxaraq, qıza onunla ailə quracağı vədini verib. Lakin vədinə əməl etməyib. Bununla kifayətlənməyən T.Sadıqlı ədəbsiz davranışı ilə Universitet tələbələri arasında özünə qarşı nifrət yaradıb. Tələbələrin şikayəti əsasında T.Sadıqlı Naxçıvan Dövlət Universitetindən qovulub. Üzüqara Bakı şəhərinə qayıtdıqdan sonra T.Sadıqlı siyasi fəaliyyətlə məşğul olmaq qərarına gəlir. O zaman məramı və məqsədlərini anlamayan gənclərin ovuna çıxan Müsavat partiyası asanlıqla T.Sadıqlını sıralarına qəbul edir. T.Sadıqlı etimadı doğrultmaq üçün mitinqlərdə, küçə yürüşlərində fəal iştirak edir və sosial şəbəkələr də ona verilən tapşırıqları canla-başla yerinə yetirir. Hətta Müsavat rəhbərliyinin gizli tapşırığı ilə İsa Qəmbərin əlinə ayağına dolaşan və müəyyən iddialı fikirləri ilə partiyanın siyasi xəttinə əngəllər yaradan, Müsavat Ali Məclisin üzvü Fərəc Kərimlinin həbs edilməsində xüsusi fəallıq göstərir. Yəni F.Kərimli haqqında müəyyən məlumatları hüquq-mühafizə orqanlarına təqdim etməklə onun həbsinə yardımçı olur. Lakin T.Sadıqlı nə qədər fəal olsa da, Müsavat rəhbərliyindən ona vəd olunan pulu ala bilmir. O, Müsavat üzvü olub, tapşırıqlar yerinə yetirərkən Bakıda ev və maşın almaq, eləcə də biznes qurmaq arzusunda idi. Bu arzularını Müsavatdan alacağı pullarla həyata keçirməyi düşünürdü. Müsavat isə onun arzularını gözündə qoyur. Bu isə Müsavat rəhbərliyi ilə T.Sadıqlı arasında münaqişə yaradır. Nəticədə T.Sadıqlı Müsavatla yollarını ayırır və Avropaya qaçır.

### Trol Sadıqlı tullantıya çevriləcək

İlk olaraq Almaniyanın Nurenberq şəhərindəki qaçqın düşərgəsində yerləşən T.Sadıqlı burada “yeni müxalifət” qrupu yaradır. Məqsədi anti-Azərbaycan qüvvələrin diqqətini özünə cəlb etməklə oturum izni almaq və maliyyə problemlərini həll etmək olur. Bununla yanaşı, Müsavat rəhbərliyinin ona olan dələduzluğunu da unutmur. Arasıra İsa Qəmbəri hədəf seçib, onun haqqında təhqiramiz ifadələr səsləndirir. Dəfələrlə Arif Hacılının Avropadakı “mühacir biznes” qrupunun dayaq rəhbəri Eldəniz Yusupov T.Sadıqlıya etiraz edib və ondan İsa Qəmbərə qarşı ittihamlarını dayandırmasını xahiş edib. Uzun müddət E.Yusupovun xahişlərini qulaqardına vuran T.Sadıqlı Fransa xüsusi xidmət orqanları ilə əməkdaşlığa başladıqdan və apardığı fəaliyyət istiqaməti tam bəlli olduqdan sonra İ.Qəmbəri “rahat” buraxır.

Fransa xüsusi xidmət orqanları T.Sadıqlıya 3 aylıq kurs keçdikdən sonra ona ev verir, şər və böhtanlarını səsləndirməsi üçün internet kanalı açırlar. Beləliklə, T.Sadıqlının tərbiyəsiz və əxlaqsız fəaliyyəti başlayır. T.Sadıqlı hər gün Azərbaycan dövləti və xalqı haqqında əsassız ittihamlar irəli sürür. O dərəcədə püxtələşib və etimadı doğruldan məxluqa çevrilib ki, artıq Fransa xüsusi xidmət orqanları onu “xüsusi mühacir” statusu ilə mükafatlandırıb. “Xüsusi mühacir” statusu o deməkdir ki, T.Sadıqlı müəyyən sadə prosedurları keçməklə Avropa parlamentinin iclaslarında gedən müzakirələri dinləmək üçün parlamentin binasına daxil ola və bəzi şəxslərlə görüşə bilər. Bu günlər T.Sadıqlının və Məhəmməd Mirzəlinin Avropa Parlamentinin Cənubi Qafqazla Əməkdaşlıq Komitəsinə sədr müavini, fransalı Natali Luazo ilə görüşmələri məhz onların “xüsusi mühacir” statusu qazanmaları ilə bağlıdır. Həm də bu görüşü rəsmi Parisin xüsusi xidmət orqanlarına nəzarət baş idarəsinin rəyi əsasında reallaşıb. Son günlər sözügedən “xüsusi mühacir” statuslu məxluqların Azərbaycan dövləti barədə hədyanlarının seriyasını bir qədər də artırmaları, məhz Avropa Parlamentinin Cənubi Qafqazla Əməkdaşlıq Komitəsinə sədr müavini, fransalı Natali Luazodan yeni maraqlı təklif almalarından irəli gəlir. Lakin bu məxluqlar anlamırlar ki, nə qədər işlək olsalar və bütün varlıqları ilə Fransanın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirsələr də, bir gün tullantıya çevriləcəklər. Bu isə onların sonu demək olacaq. Hər halda geri çevrilib onlar kimi fəaliyyət yolu tutanların acınacaqlı talelərinə nəzər yetirsinlər.

***İLHAM ƏLİYEV***

# COP 29: uğurlu ev sahibliyindən böyük dividendlərə




***"Azərbaycanın COP29-a ev sahibliyi etməsi ölkəmizin beynəlxalq arenada artan rolunun və Prezident cənab İlham Əliyevin strateji baxışının bariz nümunəsi kimi qiymətləndirilir. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq platformalarda iştirakı həm iqtisadi, həm də siyasi cəhətdən ölkəmizin mövqeyini gücləndirir. Bu tədbir Azərbaycanın təkcə enerji resursları ilə deyil, həm də qlobal miqyasda enerji keçidi və dayanıqlı inkişaf məsələlərində önəmli tərəfdaş kimi çıxış etdiyini bir daha sübut etdi". Bu sözləri SİA-ya açıqlamasında YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev deyib.***

O bildirib ki, yüksək səviyyədə təşkil olunan tədbirdə dünya ölkələrinin liderlərinin, ekofəalların, QHT və media nümayəndələrinin fəal iştirakı və sonda qəbul olunan tarixi qərar bu konfransın ölkəmizdə keçirilməsinə qarşı çirkin kampaniya aparanlara ən tutarlı cavab oldu. İnkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollarlıq iqlim maliyyəsini təmin etmək üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi tarixi sənəddir. Bu sənəd 2035-ci ilə qədər hər il azı 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini özündə ehtiva edir. Bakı Maliyyə Məqsədi və Paris Sazişinin 6-cı maddəsi inkişaf etməkdə olan ölkələrə investisiya yatırmağı nəzərdə tutur ki, bu da qlobal iqlim maliyyəsi arxitekturasını kökündən dəyişəcək. İnkişaf etmiş ölkələr üzərlərinə böyük iqlim öhdəliyi götürmək istəmirdilər. Onlar əvvəlki öhdəliyin qüvvədə qalmasını istəyirdilər. Amma diplomatik danışıqlar və gərgin müzakirələr sonda müsbət nəticə verdi. Sözsüz ki, burada Azərbaycan dövlətinin və onun rəhbərinin nüfuzu, siyasi məharəti böyük rol oynadı. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir.

Azərbaycan "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutaraq bitərəf vasitəçi kimi çıxış etdi və danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Bir çoxları Azərbaycanın COP29-u yüksək səviyyədə təşkil edəcəyinə və iqlim öhdəlikləri ilə bağlı effektiv qərara nail ola biləcəyinə şübhə ilə yanaşırdılar. Azərbaycan kiçik ada dövlətlərinin, zəif inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alaraq çağırışlar etdi. Dünyanın 190-dan artıq dövləti COP29-da müzakirələrə qoşuldu. 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un təşkili bütün qonaqlar tərəfindən yüksək qiymətləndirildi. Azərbaycanın COP29-da əsas nəaliyyətlərini aşağıdakı kimi də qeyd edə bilərik:

**1.** Enerji keçidində liderlik təşəbbüsləri:

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə neft-qaz resurslarının ixracı ilə yanaşı, bərpa olunan enerji sahəsində ciddi irəliləyişlər əldə edib. Azərbaycan Xəzər regionunda bərpa olunan enerji istehsalı üzrə lider mövqe tutur və bu sahədə beynəlxalq tərəfdaşlıq layihələrini genişləndirir.COP29 çərçivəsində Azərbaycanın günəş və külək enerjisi potensialı qlobal tərəfdaşlara təqdim olundu və yeni investisiya imkanları müzakirə edildi.

**2.** Regional əməkdaşlıq:

Bakı sammiti zamanı Azərbaycan yalnız qlobal problemlərin həllinə töhfə verməklə kifayətlənmədi, həm də regional əməkdaşlıq üçün yeni platforma təqdim etdi. Bu, həm də Azərbaycanın geosiyasi əhəmiyyətini və sülh yolu ilə inkişaf strategiyasını göstərir. Region ölkələrinin COP29 müzakirələrində iştirakı Azərbaycanın dialoq və əməkdaşlıq sahəsindəki mühüm rolunu təsdiq etdi.

**3.** İqlim maliyyəsinin artırılması:

Konfransın əsas müzakirə mövzularından biri inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyəsinin artırılması idi. Azərbaycanın bu məsələdə vasitəçi rolunda çıxış etməsi, xüsusilə inkişaf etməkdə olan ölkələrin səslərini qlobal müzakirələrə daşıması mühüm əhəmiyyət kəsb edir.

**4.** "Yaşıl Azərbaycan" təşəbbüsləri:

COP29 çərçivəsində Azərbaycan "yaşıl enerji" strategiyasını təqdim edərək, 2030-cu ilə qədər istixana qazı emissiyalarının azaldılması və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi ilə bağlı planlarını dünya ictimaiyyətinə çatdırdı. Bu, həm də Azərbaycanın Paris İqlim Sazişi çərçivəsində öz öhdəliklərinə sadiqliyini göstərir.

Bundan başqa, COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddətdir ki, davam edirdi və COP29 Sədrliyi nəticəsində sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu. Bütün bunlar isə onu göstərir ki, COP29 məqsədlərinə çatıb, Azərbaycan gələcək COP-ların da uğurlu olması üçün müsbət presedent yaradıb.

Bundan əlavə qeyd olunmalı digər mühüm məsələlər isə bunlardır:

**1.** Ətraf mühitlə bağlı strateji layihələr:

Azərbaycan COP29 çərçivəsində yalnız qlobal maliyyə məsələlərinə deyil, həm də yerli ekoloji layihələrə diqqət yetirdi. Zəngilan və Füzulidə "Yaşıl Enerji Zonasının" yaradılması, işğaldan azad edilmiş ərazilərin ekologiyasının bərpası və orada bərpa olunan enerji infrastrukturlarının qurulması ilə bağlı strategiyalar təqdim edildi. Bu layihələr həm beynəlxalq tərəfdaşlıq üçün nümunə, həm də Azərbaycanın dayanıqlı inkişaf planının bir hissəsi kimi təqdim olundu.

**2.** İqlim diplomatiyasında yeni imkanlar:

COP29 zamanı Azərbaycan enerji ixracatçısı olmaqla yanaşı, bərpa olunan enerji potensialı ilə yeni tərəfdaşlıqlar üçün qlobal bazarda mövqeyini möhkəmləndirdi. Xüsusilə Avropa İttifaqı ilə enerji təhlükəsizliyi mövzusunda əməkdaşlıq Azərbaycanın geosiyasi rolunu gücləndirir.

**3.** İnsan kapitalı və yerli biliklərin artırılması:

Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə üçün yalnız iqtisadi deyil, həm də təhsil və elmi potensialını artırmağa çalışır. Bu istiqamətdə beynəlxalq təlim proqramları və texnologiya transferi imkanları müzakirə edildi. Bu, Azərbaycanın gənc nəsil üçün yaşıl iqtisadiyyat sahəsində yeni iş yerləri və karyera imkanları təmin etmə strategiyasının bir hissəsidir.

**4.** Region üçün nümunəvi yanaşma:

Prezident cənab İlham Əliyev çıxışlarında Azərbaycanı region üçün iqlim keçidində model ölkə kimi təqdim etdi. Bu, Xəzər regionunda bərpa olunan enerji layihələrinin reallaşdırılması və transregional enerji şəbəkələrinin qurulmasını əhatə edir. Azərbaycanın bu təşəbbüsləri həm iqtisadiyyatını diversifikasiya edir, həm də qonşu ölkələr üçün yeni əməkdaşlıq perspektivləri açır.

**5.** Beynəlxalq ictimaiyyətin dəstəyi:

COP29 çərçivəsində Azərbaycan beynəlxalq qurumlarla əməkdaşlığı daha da gücləndirdi. BMT, Dünya Bankı və digər beynəlxalq təşkilatlarla birgə layihələr, xüsusilə inkişaf etməkdə olan ölkələr üçün maliyyə mexanizmlərinin təkmilləşdirilməsi sahəsində mühüm irəliləyişlər əldə edildi.

Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan iqlim dəyişikliyi ilə mübarizədə öz yerini möhkəmləndirir. Ölkə rəhbərinin iqlim siyasəti: Qlobal tərəfdaşlıq və dialoqa əsaslanır;Enerji təhlükəsizliyi və iqlim dəyişiklikləri ilə mübarizəni balanslı şəkildə təmin edir;Yerli resurslardan səmərəli istifadə etməklə ölkənin dayanıqlı inkişafını təmin etməyə yönəlib.

Azərbaycanın COP29-a ev sahibliyi, Prezident İlham Əliyevin ölkənin beynəlxalq imicini daha da yüksəltmək və dayanıqlı inkişaf məqsədlərinə uyğun siyasət həyata keçirmək strategiyasının müvəffəqiyyətli icrası kimi qiymətləndirilməlidir. COP29 konfransı Azərbaycanın bu mövqeyi möhkəmləndirməsi üçün mühüm platforma rolunu oynadı. Bakı, yalnız neft və qaz ixracatçısı deyil, həm də "yaşıl enerji"nin təşviqi və qlobal iqlim problemlərinin həllində fəal tərəfdaş olaraq tanınır. Bu, Azərbaycanın gələcəkdə də həm qlobal iqlim diplomatiyasında, həm də regional əməkdaşlıqda mühüm rol oynayacağını göstərir. Bu təşəbbüslər ölkəmizin dayanıqlı inkişafına töhfə verməklə yanaşı, qlobal iqlim məsələlərinin həllində liderliyini daha da artıracaq".

***Səbinə Hüseynli***

# Qaranlıq uçuruma doğru

## Gürcüstan çevriliş astanasında



***Gürcüstanda siyasi böhran yeni səviyyəyə çatıb. Prezident Salome Zurabişvili səlahiyyətlərinin başa çatsa da və yeni dövlət başçısı seçilsə də istefa verməkdən imtina edib. Hökumət Avropaya inteqrasiya prosesini ən azı 2028-ci ilə qədər dondurub və bunun əvəzində ABŞ Tbilisi ilə strateji tərəfdaşlığı dayandırıb. Eyni zamanda hakim "Gürcü arzusu" partiyası hər şeyin plan üzrə getdiyini iddia edir. "Mən sizin prezident olaraq qalıram, qanuni parlament yoxdur. Buna uyğun olaraq qeyri-legitim parlament yeni prezident seçə bilməyəcək. Beləliklə, inauqurasiya baş tutmayacaq", - Zurabişvili müxalifətin parlamentə hücumu zamanı bildirib.***

Hər şey noyabrın 28-də axşam Gürcüstanın baş naziri İrakli Kobaxidzenin yenidən təyinatından dərhal sonra Avropa İttifaqının onun ölkəsinə qarşı həddən artıq təhqirə yol verdiyini elan etməsi ilə başlayıb. Bununla bağlı "Gürcü arzusu" Avropaya inteqrasiyanı 2028-ci ilə qədər dayandırmaq qərarına gəlib. "Biz uzun tarixə malik qürurlu və özümüzə hörmət edən xalqıq, ona görə də Avropa İttifaqına inteqrasiyanı Avropa İttifaqının bizə göstərməli olduğu lütf kimi qəbul etməyimiz qətiyyən qəbuledilməzdir", - Kobaxidze vurğulayıb. Buna səbəb Avropa Parlamentinin "Gürcü arzusu"na qarşı yönəlmiş, respublikada keçirilən parlament seçkilərini tənqid edən beşinci qətnaməsi olub.






Gürcüstan müxalifəti bu xəbəri konstitusiya çevrilişinə cəhd kimi qiymətləndirib, çünki ölkənin Əsas Qanununda Aİ və NATO-ya üzv olmaq istəyi öz əksini tapıb. Zurabişvili şəxsən bütün aidiyyəti şəxsləri "Gürcü arzusu" hökumətini devirmək üçün etirazlara qoşulmağa çağırıb. O, orduya və hüquq-mühafizə orqanlarına da müraciət edib. Düzdür, təhlükəsizlik qüvvələri ona qulaq asmayıb. Artıq Tbilisinin mərkəzində axşamdan səhərə kimi küçə döyüşləri gedib. Əksəriyyəti gənclərdən ibarət olan etirazçılar polisə daş, fişəng atıblar. Təhlükəsizlik qüvvələri su şırnaqları, gözyaşardıcı qaz və dəyənəklərlə cavab verir. Üç gün ərzində hər iki tərəfdən yaralıların sayı 200-ə yaxındır. "Etirazlara gələn insanların çoxu davalarda iştirak etmir. Bunu adətən 15-30 yaş arası gənclər edir... Bəzi gənclər ekstremizm formasında siyasi fəaliyyət göstərə biləcəklərini qərara alıblar. Üstəlik, bu, Avropa bayraqları altında baş verir. Lakin bu yolla Gürcüstanı Aİ-yə yaxınlaşdıra biləcəklərini düşünərək döyüşməyə hazırdırlar", - gürcü politoloq Arçil Sixarulidze MDB Ölkələri İnstitutunda keçirilən dəyirmi masa zamanı izah edib.

Hər dəfə toqquşmalar polisin qələbəsi ilə başa çatsa da, zaman keçdikcə vəziyyət çətinləşir. Xüsusən də "Gürcü arzusu"nun əleyhdarlarının barrikadaları getdikcə daha da möhkəmlənir və dekabrın 1-nə keçən gecə parlamentin binasını yandırmağa nail olublar. "Etirazçılar qaydaları pozurlar. Onlar parlamenti pirotexniki vasitələrlə bombalayıblar. İşçi otaqların şüşələri zədələnib, parlamentdə yanğın baş verib, yanğın söndürülüb... Belə davam edərsə, Daxili İşlər Nazirliyi bütün vasitələrdən istifadə edib etiraz yürüşünü dayandırmağa məcbur olacaq", - deyə daxili işlər nazirinin müavini Aleksandr Daraxvelidze bildirib.

Bundan əlavə, noyabrın 30-da günortadan sonra ABŞ Gürcüstanla strateji tərəfdaşlığın dondurulduğunu elan edib və bu, yanğına yağ tökməyə bənzəyir. Amerika hakimiyyətinin fikrincə, Gürcüstan hökuməti "Aİ-yə üzvlük prosesini dayandırmaqla xalqın iradəsinə zidd addım atıb" və bununla da guya "Avropa ilə yaxınlaşma imkanından əl çəkib və Gürcüstanı Kreml qarşısında daha həssas edib". Dövlət Departamenti iddia edir ki, "Gürcü Arzusu"nun hərəkətləri "ortaq dəyərlərə və demokratiya, qanunun aliliyi, vətəndaş cəmiyyətinə, insan hüquqlarına və əsas azadlıqlara hörmətə əsaslanan ABŞ-Gürcüstan strateji tərəfdaşlığının əsas prinsiplərini pozur.

Bunun fonunda gürcü mətbuatı diplomatların könüllü istefa verməsi ilə bağlı xəbərlər yaymağa başlayıb. Xüsusilə, istefa məktubunu Gürcüstanın Litvadakı səfiri Salome Şapakidze və Gürcüstanın ABŞ-dakı səfiri, respublikanın keçmiş xarici işlər naziri David Zalkaliani yazıblar. Şayiələrə görə, xarici işlər nazirinin müavini Teymuraz Canjalia da belə edib. Bununla belə, bunda qeyri-adi heç nə yoxdur. Məsələn, may ayında xarici agentlər haqqında qanuna etirazlar fonunda Gürcüstanın Fransadakı səfiri Qoça Cavaxişvili istefa verib. O, indiki itaətsizlik aktlarında iştirak edir.

Həmçinin Tbilisi meriyasının 200-ə yaxın əməkdaşı "Gürcü arzusu"nun siyasətləri ilə razılaşmadığını bildirib. "Biz vətəndaşlarımıza, Konstitusiyaya, Avropa dəyərlərinə və Gürcüstanın seçdiyi kursa sadiq idik, sadiqik və sadiq qalırıq və fəaliyyətimizin bir hissəsi olaraq ölkəmizin Avropa dövləti kimi qurulmasına töhfə verməkdə davam edirik", imzaladıqları açıq məktubda yazıblar. Oxşar müraciətlə özəl və dövlət məktəblərinin 2500 müəllimi çıxış edib.

Buna baxmayaraq, "Gürcü arzusu"nun liderləri özlərini elə göstərirlər ki, guya heç bir xüsusi hadisə baş vermir. Belə ki, partiyanın icraçı katibi Mamuka Mdinaradze hesab edir ki, Vaşinqton konkret olaraq strateji tərəfdaşlığa xitam verdiyini elan edib, çünki etirazçılarda sürət yoxdur. Eyni zamanda o, vurğulayıb ki, Tbilisi respublikaya ABŞ-la vizasız rejim, birbaşa uçuşlar və azad ticarət təmin etmədən münasibətlərin bərpasına razılıq verməməlidir. Kobaxidze öz növbəsində ABŞ-Gürcüstan münasibətlərinin gələcəyi barədə yalnız ABŞ-ın növbəti prezidenti Donald Trampın administrasiyası ilə danışacağını bildirib.

Hələlik küçə toqquşmaları "Gürcü Arzusu" hökuməti üçün ciddi təhlükə yaratmır. Etirazlar gözlənilən idi. Eyni zamanda çoxları müxalifətin indi gördüyümüzdən daha güclü çıxacağını düşünürdü. Eyni sözləri onun seçki nəticələri haqqında da demək olar. "Gürcü arzusu"nun əleyhdarları dağınıqdırlar və xarizmatik liderləri yoxdur. Zurabişvilinin davranışına gəlincə, Gürcüstan prezidenti özünün qu quşu mahnısını oxuyur və onun qaçılmaz istefasından sonra müqavimət hərəkatına rəhbərlik etməkdənsə, çox güman ki, Fransaya gedəcək.

### Gürcüstan siyasəti küçədədir

Gürcüstanda etiraz fəallığı güclənir: ötən həftənin sonunda nümayişlər təkcə Tbilisidə deyil, həm də əyalət şəhərlərində - böyük Batumi və Kutaisidən tutmuş kiçik Axaltsixe və Xaşuriyə qədər keçirilib. Narazılığa hakimiyyətin Aİ ilə Avropaya inteqrasiya ilə bağlı danışıqları dayandırmaq qərarı səbəb olub. Qərbdən də təzyiqlər artıb. Xüsusilə, ABŞ Gürcüstanla strateji tərəfdaşlığı dayandırdığını bəyan edib. Buna baxmayaraq, hakimiyyət heç bir güzəştə getmək niyyətində olmadıqlarını açıq şəkildə bildirir. Dekabrın 1-də, vəzifəsinin ilk günündə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə yeni ali nümayəndəsi Kaja Kallas Gürcüstan hakimiyyətinə qeyri-müəyyən şəkildə Avropa İttifaqının "birbaşa nəticələri" vəd edib. Bir gün əvvəl ABŞ Dövlət Departamenti Gürcüstanla 2008-ci il Strateji Tərəfdaşlıq Xartiyasına xitam verildiyini elan edib. Departament izah edib ki, hakim "Gürcü Arzusu" (GA) partiyasının Avropaya inteqrasiya prosesini dayandırmaq qərarı respublika Konstitusiyasına ziddir, onun 78-ci maddəsində deyilir: "Hakimiyyətlər Aİ və NATO-ya inteqrasiya üçün hər şeyi etməyə borcludur". Dövlət Departamenti həmçinin bu günlərdə Tbilisi və Gürcüstanın digər şəhərlərində küçələrə çıxan nümayişçilərə qarşı güc tətbiqini pisləyib.

Eyni zamanda, Vaşinqton açıq şəkildə bildirdi ki, İrakli Kobaxidze hökuməti "Avroatlantika yoluna qayıtsa", parlament seçkiləri zamanı pozuntuları araşdırsa və "antidemokratik qanunları" ("Şəffaflıq haqqında" xarici təsir" və "Ailə dəyərlərinin və yetkinlik yaşına çatmayanların qorunması haqqında") ləğv etsə, qərarlarına yenidən baxa bilərlər. Kobaxidze Vaşinqtona cavab verməkdən çəkinməyib və dekabrın 1-də ABŞ-ın qərarını "müvəqqəti" adlandırıb. O qeyd edib ki, belə bir addım "Donald Tramp administrasiyası üçün mümkün qədər ağır miras qoymağa çalışan" Demokrat prezident Co Bayden administrasiyasından gəlir. Tbilisi ümid edir ki, Ağ Evin yeni rəhbəri vəzifədən gedən Amerika hökumətinin qərarına yenidən baxacaq. İrakli Kobaxidze əmin edib ki, Gürcüstan hakimiyyəti artıq gələcək administrasiya ilə "dolayı yolla uğurlu ünsiyyətə" malikdir.

Bu arada Gürcüstan hakimiyyəti 2025-ci il yanvarın 20-dək cənab Trampı gözləməli olacaq, halbuki respublikada etiraz fəallığı hələ də səngimir. Ötən gecə keçirilən mitinqlər daha böyük nümayişlərlə müşayiət olunub. Bazar günü gecə Tbilisinin mərkəzində asayiş keşikçiləri kütləni su şırnaqları ilə suvarıb və gözyaşardıcı qazdan istifadə ediblər, etirazçılar isə atəşfəşanlıqdan hazırlanmış "pulemyotlardan" atəş açaraq cavab veriblər. Polis heç vaxt nümayişçiləri tamamilə dağıta bilməyib. Bazar günü səhər hüquq-mühafizə orqanlarının əməkdaşları etirazçıları Rustaveli prospektindən sıxışdırıb parlamentin ərazisindəki barrikadaları sökə bilsələr də, mitinq yolun aşağısına - universitet binasına doğru irəliləyib. Etirazçılar küçələri tərk etmək fikrində olmadıqlarını deyirlər.

Müxalifətin problemi etiraz hərəkatının aydın liderinin olmamasıdır. Lakin hazırkı prezident Salome Zurabişvili bu rolu öz üzərinə götürməyə çalışır. Dekabrın 14-də "Gürcü Arzusu"nun nəzarətində olan Seçkilər Kollegiyası keçmiş futbolçu Mixail Kavelaşvilinin dövlət başçısı vəzifəsinə namizədliyini təsdiq edəcək. Bununla belə, şənbə günü xanım Zurabişvili bildirib ki, o, hazırkı parlamenti qeyri-legitim hesab edir və buna görə də "legitim parlament və prezident seçilənə qədər" öz vəzifələrini yerinə yetirməyə davam edəcək. Bundan əlavə, o, parlamentə daxil olan (lakin mandat almaqdan imtina edən) dörd müxalifət koalisiyasının, eləcə də ictimaiyyət nümayəndələrinin daxil olduğu "koordinasiya şurasına" başçılıq etməyə razılaşıb.

Baş verənlərə baxan Dövlət Təhlükəsizliyi Xidməti artıq "2023-cü ildə dövlət çevrilişinə hazırlıqla bağlı açılmış cinayət işi çərçivəsində" baş verənləri diqqətlə izlədiyini bəyan edib. İrakli Kobaxidze isə əmin edib ki, Salome Zurabişvili istənilən halda "iqamətgahını tərk etməli və bu binanı qanuni seçilmiş prezidentə verməli olacaq". "Bütün konstitusiya orqanları gürcü xalqının əksəriyyətinin iradəsinə uyğun olaraq komplektləşdiriləcək", o əlavə edib.

Bundan əlavə, baş nazir müxalifəti "səmimi vətəndaşları çaşdırmaqda" günahlandırıb. Onun sözlərinə görə, Tbilisi Avrointeqrasiyanı dayandırmır, Brüsselin "şantajına" məruz qalmamaq üçün yalnız 2028-ci ilə qədər danışıqlar prosesini dayandırır. Cənab Kobaxidze Gürcüstanın 2030-cu ildə Avropa Birliyinə üzv olacağına söz verib və ötən günlərdəki mitinqləri "liberal faşizmin sonunun başlanğıcı" adlandırıb. Onlar Moskvadakı vəziyyəti də şərh ediblər. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bazar günü baş verənləri "daha bir "rəngli" inqilab cəhdi" adlandırıb: "Qonşular Ukrayna yolu ilə sürətlə qaranlıq uçuruma doğru irəliləyirlər".

**V.VƏLİYEV**



# “İstənilən məqamda bölgəmizdə yenidən gərginlik yarana bilər”

*“Bu yeni xəbər deyil ki, Ermənistan Azərbaycanla sərhəddə artıq güc toplayır, silah-sursat alır, öz əzələlərini möhkəmləndirir. Ancaq bu Ermənistandan daha çox onun arxasında duran qüvvələrə lazımdır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.O bildirib ki, Ermənistan onların ssenarisi ilə hərəkət etməyə başlayıb: "İstənilən məqamda bölgəmizdə yenidən gərginlik yarana bilər.*

**MÜNASİBƏT**

Xüsusilə də, bu proseslərin intensiv şəkil almasını da, hətta Gürcüstandakı hadisələrlə izah edə bilərik. Çünki Qərb burada öz istəyinə hələ ki, nail ola bilmir. Tbilisidə küçə döyüşləri gedir, çadır şəhərcikləri qurulur, Gürcüstanı təmsil edən xaricdəki səfirlər müxalifətə dəstəyini bildirirlər. Bunlar aydın məsələdir. Ancaq hər halda Qərbin vay-şüvən yolu ilə qaldırdığı hay-küy həm də Ermənistan istiqamətində proseslərin də bir qədər tezləşməsinə səbəb kimi görünür. Qərb çalışır ki, Ermənistandan istifadə edərək Cənubi Qafqazda möhkəmlənsin. Biz dəfələrlə demişik ki, burada lazımsız missiya ilə gəlmiş Avropa İttifaqının müşahidəçi missiyasının dəst-xəttini görürük. Onlar əsas casusluqla məşğuldurlar. Azərbaycanın, İranın, Rusiya mövqelərinin arxasınca baxırlar və çalışırlar ki, zəif nöqtələrin axtarışında özləri üçün qənaət çıxarsınlar. Bu baxımdan da istisna etmirəm ki, bəlkə də, onların bölgəmizə xaricdən hərbi kontingent gətirməsi kimi planı da var. Çünki əgər Azərbaycanla Ermənistan arasında yeni bir toqquşma, lokal müharibə başlayarsa, onda onlar bəhanə edəcəklər ki, burada günahkar Azərbaycandır. Azərbaycan Ermənistana hücum edir, Azərbaycan Ermənistanı boş buraxmır. Bu təbliğatı biz dəfələrlə eşitmişik. Ona görə də, Qərb həqiqətən də, Rusiya və İranın da mövqelərini zəiflətmək üçün də Cənubi Qafqaza gözünü dikib. Əgər əlverişli şərait yarana bilərsə, istifadə edəcəklər ki, burada möhkəmlənsinlər”.Onun sözlərinə görə, Ermənistan, əlbəttə ki, özbaşına deyil: ”O subyektivliyini itirən ”məmləkətcığaz”dır. Hətta subyekt yox, obyekt kimi özünü ifadə edir. Digər tərəfdən Nikol Paşinyan çalışır ki, vəziyyətdən istifadə edərək göstərsin ki, guya, Qərbdə ən sevilən, seçilən, arzu olunan liderdir. Özünün şəxsi reytinqlərinin aşağı düşməsi fonunda çalışır ki, yenidən özünü toparlasın ki, guya, vəziyyətə hakim ola bilib, idarəetmə ondadır. Ancaq bu, inandırıcı görünmür. Hər halda o gözəl bilir ki, reytinqlərin aşağı düşməsi ona gələcək seçkilərdə yaxşı nəsə vəd etmir. Ona görə ölkə daxilindəki problemlərin üstünü xaricdən, Qərbdə olan üstünlükləri ilə ört-basdır etmək istəyir. İlk növbədə camaatın güzəranı, sosial vəziyyəti göstərir ki, Ermənistan son dərəcə problemli məmləkətdir. Öz daxili, sosial proqramı, iqtisadi islahatlar proqramı, yoxdur, investisiyaları cəlb edə bilmir. Belə olduğu halda insanlar özlərinin gələcəyini sadəcə Ermənistanda görmürlər. Onlar çalışırlar ki, Amerikaya, Qərbə getsinlər ki, orada erməni icmalarının mövqeləri güclüdür, orada özlərini sınasınlar, inteqrasiya olunub yaşayış tərzlərini qursunlar. Bu məsələlərin hamısını hökümət mənsubları bilməyə bilməz. Onlar yaxşı anlayırlar. Amma mənə elə gəlir ki, altdan camaatın axınını, ölkədən çıxmasını, bəlkə də arzu edirlər. Əgər insanlar çıxırsa, tələbkarlıq da azalacaq, gözləntilər də olmayacaq. Odur ki, müharibə ruhunun yaranması bir yandan, ictimai-sosial problemlərin mövcudluğu ikinci tərəfdən, bir tərəfdən də Qərb ölkələrinin müdaxilə etməsi Ermənistanı son məqamda çox ağır duruma salacaq. Çünki bu problemlərin həlli ilə bağlı ilk növbədə gərək Ermənistan hökuməti məşğul olsun. Ancaq o bunu ya etmək istəmir, ya da edə bilmir. Çünki ixtiyarı əlindən verib, Fransa, Yunanıstan, Amerika, kim gəldi orada sükanı əlinə keçirir ki, Ermənistanın, guya, gələcəyini müəyyən etsin. Ancaq bu missiya yerli hökumətin üzərindədir. İnsanlar bir daha yada salırlar ki, Paşinyan, sənə səs vermişik ki, sən ölkəyə rəhbərlik edəsən. Bir yandan deyir ki, real Ermənistan formalaşdırmalıyıq, digər tərəfdən isə ixtiyarı əldən verir, Qərb dairələri burada meydan sulayırlar. Təzadlar, vəziyyət də bundan ibarətdir. Odur ki, Ermənistanın vəziyyəti əvvəlki kimi problemlidir, bu problemin də dərinliyi getdikcə dərinləşir. Belə olduğu halda hökumət rəhbəri heç vaxt inana bilməz ki, o növbəti seçkilərdə qələbə əldə edə bilər. Əksinə ola bilsin ki, onun seçkilərə qədər nüfuzu o dərəcədə aşağı düşsün ki, rəqiblərinə məğlub olsun. Bu ehtimalı da rədd etmək olmaz”.

**Söylü Ağazadə**

# "Onlar Azərbaycanın inkişafını, uğurlarını heç cür həzm edə bilmirlər"

*“Qərb və Avropa dairələri uzun illərdir ki, Azərbaycana qarşı düşmənçilik və qərəzli mövqe nümayiş etdirir”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.*



O bildirib ki, həmin siyasi dairələr, ölkələr öz maraqlarını təmin etmək məqsədilə əlbəttə ki, zamanla Azərbaycanda bəzi ”İnsan hüquqları müdafiəçiləri” vasitəsilə, onların maliyyələşdirilməsinə cəhd edilməsi



yolu ilə Azərbaycanda müəyyən təxribatlar həyata keçirməyi planlayıblar: ”Amma Azərbaycan dövlətinin preventiv tədbirləri, Azərbaycan hüquq və mühafizə orqanlarının ayıq-sayıqlığı nəticəsində daim bu zərərli təhdidlərin qarşısı qətiyyətlə alınıb. Amma həmin dairələr xaricdə yaşayan adlarını blogger qoymuş anti-Azərbaycan qüvvələri də maliyyələşdirməklə son zamanlar Azərbaycana qarşı qarayaxma, gözdənsalma və bu kimi təxribatçı fəaliyyət həyata keçirirlər. Bunun bir çox səbəbləri var. Qərb və Avropa dairələri Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin milli maraqlara, dövlətçilik maraqlarına əsaslanan müstəqil siyasətinə qarşı daim bu cür qərəzli mövqe nümayiş etdiriblər. Onlar Azərbaycanın inkişafını, uğurlarını heç cür həzm edə bilmirlər. Bunun nəticəsi olaraq yenə də Azərbaycana qarşı bu cür riyakar fəaliyyət həyata keçirirlər. Xüsusilə, Azərbaycan 44 günlük Vətən müharibəsindəki dünyaya nümunə ola biləcək möhtəşəm qələbəsindən sonra, ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra bu cür hücumlar, Azərbaycana qarşı düşmənçilik mövqeyi daha da geniş vüsət alıb. Bu cür təxribatçı və Azərbaycana qarşı qərəzli mövqe daha da güclənib, sürətlənib. Azərbaycan dövlətinə, xalqına qarşı yönəldilmiş bu yaramaz qüvvələrin çeşidli planlarının qarşısı daim alınıb”.

”Biz qonşu Gürcüstanda baş verən proseslərə baxsaq, tam aydın şəkildə həmin dairələrin əsl məqsədlərini və məqamlarını bir daha görə bilərik. Bu gün Fransa başda olmaqla bir çox Qərb dairələri Azərbaycana qarşı bu cür qəbuledilməz mövqe nümayiş etdirirlər. Eyni zamanda burada İran dairələrindən də, İranda olan bəzi mənbələrdən də maliyyələşən və Azərbaycana qarşı yönəldilən təxribatçı və başıpozuq dəstələr var. Onlar Avropada fəaliyyət göstərərək həmin dairələrdən maliyyələşərək Azərbaycanın uğurlarını gözdən salmağa çalışırlar. Azərbaycana qarşı bu cür hücuma keçiblər. Ona görə də, Azərbaycan cəmiyyəti, xalqı olaraq bu cür təhdid və təzyiqlərin qarşısında ayıq-sayıq olmalıyıq. Öz vətəndaş mövqeyimizi peşəsindən asılı olmayaraq hamı daim nümayiş etdirməlidir. Biz vətəndaş, vətəndaş cəmiyyəti olaraq bu təhdidlərin və hücumların qarşısının alınmasında bir sipər olmalıyıq. Belə olduğu halda Azərbaycan dövlətinin inkişafını zəiflədən, onun möhkəm təməllərini zəiflətmək istiqamətində atılan addımlar neytrallaşdırıla bilər” - deyə o, əlavə edib.

**Söylü**

# 216 azərbaycanlı qətlə yetirilib, 6522 nəfər zərərçəkmiş kimi tanınıb - Baş Prokurorluq

Ermənistandan son deportasiya zamanı 216 azərbaycanlı qətlə yetirilib, 6522 nəfər zərərçəkmiş kimi tanınıb. SİA xəbər verir ki, bunu Baş Prokurorluğun İstintaq idarəsinin rəis müavini Qasım Məmmədov parlamentdə keçirilən “Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdış” mövzusunda dinləmədə deyib. Onun sözlərinə görə, qərbi azərbaycanlılara qarşı törədilmiş cinayətlər şərti olaraq istintaq dövründə dörd mərhələyə bölünüb: ”Bu, 1905-1907, 1918-1920, 1947-1953, 1987-1991-ci illərdə törədilmiş cinayətlərdir. Həmin dövrlərdə böyük sayda azərbaycanlı qətlə yetirilib və məcburi köçkünlüyə məruz qalıb”.



Q.Məmmədov bildirib ki, təkcə 1987-1991-ci illərdə törədilmiş cinayətlər nəticəsində 250 mindən artıq qərbi azərbaycanlı öz tarixi torpaqlarından köçürülməyə məruz qalıb: ”Eyni zamanda istintaq materialları ilə 216 nəfər şəxsin bu proseslər əsnasında qətlə yetirilməsi müəyyən olunub. İstintaqın hazırkı mərhələsində 6522 nəfər şəxsin dindirilməsi təmin olunub. Onların zərərçəkmiş şəxs qismində tanınması təmin edilib”. O, bəzi hallarda vəfat etmiş şəxslərin hüquqi varislərinin zərərçəkmiş şəxsin hüquqi varisi qismində tanındığını qeyd edib: ”Həmçinin 216 nəfər qətlə yetirilmiş şəxsin qətlə yetirilmələrini təsdiq edən ifadələri özündə əks etdirən şəxslərin dindirilməsi təmin olunub”.

Baş Prokurorluq rəsmisi vurğulayıb ki, qərbi azərbaycanlılara qarşı cinayətlərin istintaqının bir əhəmiyyəti də müxtəlif sübutlar və tədqiqat nümunələrinin ayrı-ayrı qurumlardan, tarixçilərdən və ya araşdırmaçılardan toplanmasıdır: “Hazırkı mərhələdə bu cinayətlərin törədilməsini təsdiq edən mötəbər sübutların vahid mərkəzdə, cinayət işi materiallarında toplanmasına çalışırıq. Eyni zamanda müxtəlif xarici ölkələrə qeyd edilən cinayət hadisələri ilə əlaqədar məlumatların əldə olunması üçün beynəlxalq hüquqi yardımlar göndərilib, bir sıra hallarda zəruri sənədlər əldə olunub”.

Q.Məmmədov söyləyib ki, təkcə 1987-1991-ci illərdə törədilmiş əməllər üzrə deyil, o cümlədən əsrin əvvəllərində törədilmiş əməllər üzrə xarici ölkələrin mətbuat qurumlarında dərc olunmuş ermənilərin qərbi azərbaycanlılara qarşı törətdikləri cinayətləri özündə əks etdirən mötəbər sübutlar iş materiallarına əlavə olunub: ”Bu istiqamətdə istintaq tədbirləri davam etdirilir və gələcəkdə də ictimaiyyət məlumatlandırılacaq”.

# “Eşşək südü” deyib KEÇMƏYİN!





***Əsas qida maddələrindən olan südün qiyməti son illərdə dünyada və Türkiyədə ən aşağı həddə çatsa da, bəzi heyvanlardan alınan südün qiyməti qızılın qiyməti ilə demək olar ki, rəqabət aparır.***

### Bəs, yüksək qiymətə malik olan eşşək südü necə? Onun hansı fayda və zərərləri var? Satışı harada və necə baş tutur?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Yüksək protein, kalsium, fosfor və D vitamini kimi qida dəyərlərinə malik süd 7-70 yaş arası hər kəsin, xüsusilə uşaqlar, hamilə qadınlar, süd verən qadınlar və yaşlılar üçün əvəzolunmaz qida mənbəyidir.

Ana südünə ən yaxın qida tərkibi ilə seçilən eşşək südü, qədim Misir dövründən günümüzə qədər faydaları ilə seçilən bir süd növüdür. Qidalandırıcı süd növü olmaqla yanaşı, həm də kosmetik faydalarına görə gözəllik sənayesində axtarılan bir qidadır.

100 mililitr eşşək südünün tərkibində təxminən 42 kalori var. Natrium, kalium, kalsium, fosfor, sink maqnezium, A, B2, B1, E, C vitaminləri və zülal kimi minerallarla zəngindir. Asan həzm olunan eşşək südü, xüsusilə inək zülalına allergiyası olanlar tərəfindən asanlıqla istehlak edilə bilər. Tərkibində yüksək miqdarda laktoza var. Omeqa 3 və Omeqa 6 yağ turşuları ilə də zəngin bir qida olan eşşək südünün tərkibində linolenik yağ turşuları var.

ARAŞDIRMA

### Azərbaycanda eşşəklərin sayı azalıb. STATİSTİKA

Dövlət Statistika Komitəsinin 2024-cü il 1 yanvar tarixinə olan məlumatında Azərbaycandakı ev heyvanları, ev quşları və arı ailələrinin sayı açıqlanıb. Rəsmi statistikada dəvələr istisna olmaqla bütün ev heyvanları və quşlarının, eləcə də arı ailələrinin sayında azalma nəzərə çarpır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov:** “Beş il öncə Azərbaycanda eşşək ferması yaratdılar və eşşək südünü satışa çıxartmaq istədilər. Azad İstehlakçılar Birliyi müəyyən işlər apardı ki, bunun qarşısı alınsın. Bu yalançı həkimlərin və marketoloqların bir hiyləsidir. Mən belə adamlara sual verirəm. Akademik tibbi və yaxud akademik farmasepiyanın hansı resursları çatmır ki, onları akademik tibbə daxil etsinlər? insan resursu çatmır? Maliyyə resursu çatmır? Laboratoriya resursu çatmır?

Belə yalançı məsələlər çox təəssüflər



olsun ki, Azərbaycana da gəlib çıxıbdır və guya eşşək südü əvəzolunmazdır və s. Bunlar hamısı səhvdir və Azərbaycanda belə bir şeyin yaradılması həddindən artıq anormal bir məsələdir. Bunun xeyri barədə kim nə danışırsa, hamısı yalandır. Təsadüfi deyil ki Türkiyəli məşhur professorun bir sözü var ki, dünyanı aldatmaq üçün 20 nəfər pula satılmış professor tapmaq kifayətdir. Azad İstehlakçılar Birliyi buna qarşıdır, kim bu xəyaldadırsa bunun qarşısı alınmalıdır”.

### Eşşək südünün qiyməti nə qədərdir?

Süd əsasən 200 və 500 qramlıq şüşələrdə satılır. 200 qramlıq süd 16 manat, 500 qramlıq süd isə 40 manatdır.

**Dünya**

Dünyanın bir çox ölkələrində, o cümlədən qonşu Türkiyə dövlətində çox sayda eşşək fermaları yaradılıb. Eşşək südü istehsal edən ölkələr arasında ABŞ, Braziliya, Fransa, İtaliya, İngiltərə, İspaniya, Çin də var. Serbiyada isə eşşək südündən pendir də hazırlanır. Pule pendiri adı altında hazırlanan pendir əsasən Balkan ölkələrində saxlanılan eşşəklərin südündən istehsal edilir. Məlum olub ki, dünyanın ən bahalı pendiri eşşək südündən hazırlanan pendirdir. 1 kq çəkili pendirin qiyməti 1000 avrodur. Onun belə baha satılmasına səbəb 1 kq. pendir üçün 25 litr eşşək südünün istifadə edilməsidir.



### Eşşək südünün faydaları nələrdir?

Tərkibindəki laktoferrin maddəsi sayəsində mikrob və iltihab əleyhinə təsir göstərir. O, həmçinin antioksidant xüsusiyyətlərə malikdir və orqanizmin immunitet sistemini gücləndirərək xəstəliklərə qarşı müqaviməti artırır. Bundan əlavə, eşşək südü xərçəng hüceyrələrinin yaranmasının və əmələ gələn hüceyrələrin çoxalmasının qarşısını alır.

Tərkibindəki yüksək kalsiumla sümük və dişlərin inkişafını dəstəkləyir. Sümükləri gücləndirir və bədəni diş çürüməsinə qarşı qoruyur. Linoleik yağ turşuları sayəsində həzm sisteminin nizamlı işləməsinə kömək edir. Qəbizlik, şişkinlik və qaz kimi problemlərin qarşısını alır. Bədənin ehtiyac duyduğu enerjini təmin edir.

Ana südünə ən yaxın qida dəyərinə malik olan eşşək südü, xüsusilə tərkibindəki immunoqlobulin sayəsində yeni doğulmuş körpələrin immun sistemini gücləndirməyə kömək edir və infeksiya riskini azaldır. Eşşək südü yenidoğulmuşlarda tez-tez rast gələnən vərəm və boğaz infeksiyalarının qarşısını alır, həmçinin insult və tənəffüs yolu infeksiyalarının qarşısını alır.

### Eşşək südü hansı xəstəliklərə faydalıdır?

- Astmadan xərçəngə, bronxitdən siroza



qədər bir çox xəstəliyin müalicəsində istifadə edilən eşşək südü, tərkibindəki əvəzolunmaz yağ turşuları sayəsində müalicəvi xüsusiyyətlərə malikdir. O, həmçinin ağciyər, mədə, qaraciyər və digər xərçəng növlərinin müalicəsində köməkçi rol oynayır. Dəri hüceyrələrini qidalandıran qida maddəsi bədəni ekzema və sədəf kimi dəri xəstəliklərinə qarşı da qoruyur.

- Həzm sistemi pozğunluqlarına yaxşı təsir göstərən eşşək südü qəbizlik problemlərinin qarşısının alınmasında mühüm rol oynayır.

- Boğaz və yaraların qarşısını almağa kömək edir.

- Əzələ yorğunluğuna və baş ağrılarına yaxşı təsir edən eşşək südü xroniki yorğunluğun müalicəsində çox təsirlidir. Tərkibindəki E vitamini göz sağlamlığını qorumağa kömək edir.

- Eşşək südü yeni doğulmuş körpələrin sümüklərini gücləndirir və onları sümük sınıqlarından qoruyur.

- Dərinin kollagen toxumasının güclənməsində mühüm rol oynayan bu süd dərinin hamar və canlı olmasına kömək edir, qırışların yaranmasının qarşısını alır.

- Tərkibindəki Omega 3 və Omega 6 yağ turşuları ürək-damar sağlamlığını qorumaqda çox təsirlidir.

### Eşşək südü haramdır, yoxsa halal?

Son zamanlar sağlamlığa faydaları ilə gündəmə gələn eşşək südünün İslamda haram olduğu barədə məlumatlar var. Evcil eşşək ətini yemək Muhəmməd tərəfindən haram olduğu deyilir və fiqh hökmünə görə əti haram olan heyvanların südü içilməməlidir. Bu çərçivədə eşşək əti haram olduğu üçün onun südünü yemək də haramdır.

Bəzi İslam inanclarına görə, eşşək əti yemək və eşşək südü içmək məkruhdur. Lakin qəbul edilən əsas fikir, eşşək ətinin və





eşşək südünün haram olmasıdır. Əgər eşşək südü bir xəstəliyin müalicəsi üçün içilirsə, dini etiqad yoxdur. İslam dini idarələrinə görə, əgər eşşək südü içmək xəstəliyin yeganə müalicəsidirsə, həkim tərəfindən istehlak edilə bilər. Lakin xəstəlik dərmanla müalicə oluna bilsə, eşşək südü caiz deyil.

Qafqaz Müsəlmanlar İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev: “Eşşək, qatır, at yəni, bu heyvanlar eynicinsli, eyni qəbildən, eyni nəsildəndirlər. Bunlar at cinsinə aiddirlər və bir-birinə yaxın cinsli olan heyvanlardır. Onların ətləri də haram deyil. İslamda dinində bunların əti halaldır. Amma burada bir incə nüans var ki, məsələn, quzu əti, qoyun əti, keçi əti, dana əti və inək əti olan yerdə bu heyvanların ətindən istifadə etməməyi dinimiz bizə məsləhət görür. Dinimizdə belə buyrulur. Birinci gərək qoyun, quzu, dana, inək ətlərindən istifadə olunsun. Əgər olmazsa atın da, qatırın da, eşşəyin də ətindən yemək olar. Yəni bunun haramı, günahı da yoxdur.

Əgər bir heyvanın şəriətdə əti halaldırsa, haram deyilsə onun südü də pakdır, südündən də tam rahat istifadə etmək olar, hətta onların ifrazatı da murdar hesab olunmur. Yəni, sidiyi də murdar hesab olunmur, onların təzəkləri, peyinləri də murdar hesab olunmur. Məsələn, bu heyvanların peyinlərini əkin sahələrinə səpə bilərlər, bəzən qədimdə də kəndlərdə evləri tikəndə, evlərə suvaq çəkəndə, hətta mən bilirəm ki, bu heyvanların peyinindən istifadə ediblər və edə də bilərlər. Bunlar da murdar hesab olunmaz.

Ardı Səh. 14

**3.11. Heyvanların, quşların və arı ailələrinin sayı**
**(1 yanvara, min baş)**

| | 2011 | 2016 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|
| İribuynuzlu mal-qara - cəmi | 2613,7 | 2708,3 | 2650,7 | 2648,8 | 2618,1 | 2507,7 |
| onlardan: | | | | | | |
| inək və camışlar | 1261,4 | 1303,0 | 1280,5 | 1288,0 | 1288,8 | 1235,1 |
| Qoyunlar | 7784,8 | 8025,6 | 7483,8 | 7314,2 | 7170,8 | 6640,7 |
| Keçilər | 620,2 | 651,5 | 605,9 | 585,5 | 580,9 | 419,9 |
| Donuzlar | 6,3 | 5,2 | 5,9 | 6,0 | 5,1 | 4,8 |
| Atlar | 76,5 | 73,7 | 60,4 | 58,4 | 56,6 | 53,1 |
| Eşşəklər | 46,1 | 35,8 | 23,4 | 21,0 | 20,0 | 14,9 |
| Dəvələr | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,4 | 0,4 |
| Quşlar | 22432,3 | 27559,4 | 30175,8 | 29623,9 | 29794,9 | 28698,3 |
| Arı ailələri, min vahid | 193,2 | 251,2 | 596,7 | 625,3 | 656,1 | 597,3 |

# “Eşşək südü” deyib KEÇMƏYİN!



Əvvəli-Səh-13

Hətta təbabətdə dəvənin südü özözlüyündə, dəvənin təri öz-özlüyündə müalicəvidir və hətta dəvənin sidiyindən belə təbabətdə milli təbabətdə istifadə edə bilirlər. Yəni, bunlar murdar hesab olunmur. Bunlar pakdır, təmizdir və xüsusən də ulağın, yəni eşşəyin südü müalicəvidir. El təbabətində göy öskürək deyilən bir xəstəlik var ki, bu adətən uşaqlarda çox yayılır və onlar müalicəsində ulağın, eşşəyin südündən çox istifadə edirlər. İcazəlidir, halaldır və təmizdir, heç bir günahı, heç bir haramiyyəti yoxdur, istifadə etmək olar.

## Eşşək südünü necə içmək olar?

Çin, İngiltərə, İtaliya, Fransa, Braziliya, Çili və Amerikada uzun müddətdir istehlak edilən və sağlamlığa faydaları ilə ön plana çıxan eşşək südü, təsərrüfat məhsullarını gündəlik təzə və ya onlayn olaraq satan təbii məhsul bazarlarından alına bilər. İnternet üzərindən dondurulmuş göndərilən eşşək südü otaq temperaturunda təkbaşına və ya soyuducunun aşağı bölmələrində əridildikdən sonra istehlaka hazır olur. İstehlak ediləcək miqdar qəhvə qabına tökülərək isidildikdən sonra istehlak edilməlidir.

Eşşək südünün qaynadılması onun faydalı qida komponentlərinin itirilməsinə səbəb olur. Antibakterial xüsusiyyətə malik olan eşşək südü bu xüsusiyyəti sayəsində mikrobları öldürür. Pasterizə və ya qaynadılmış halda bu xüsusiyyətini itirir. Bu səbəbdən çiy istehlak edilməsi tövsiyə edilən eşşək südünün ömrü təxminən 72 saatdır.

## Eşşək südü sabununun faydaları nələrdir?

Eşşək südü sabunu xüsusilə qış mövsümündə aşınmış, çatlamış və qurumuş dəriyə qulluq göstərərək dərini xarici təsirlərdən qoruyur. Gündəlik istifadəyə uyğun quruluşu ilə diqqət çəkən məhsul qocalmanın təsirini gecikdirir və qırışların yaranmasının qarşısını alır.

- Təbii eşşək südü sabunu sızanaq, ekzema, sədəf kimi dəri problemlərinin müalicəsini dəstəkləyir və dəri xəstəliklərinin qarşısını alır.
- Dərinin ehtiyac duyduğu nəmi təmin edərək yumşaq və hamar görünməsinə kömək edir.
- Dəridəki ləkələri və sızanaq izlərini yox edir və dərini qidalandırır və bərpa edir.
- Dərinin rəngini açır və qocalmanın təsirini gecikdirir.
- Quru dəriyə sağlam qulluq göstərərək dərini mümkün aşınma, qıcıqlanma və səpkilərdən qoruyur.
- Eşşək südü sabunu ölü dərini dəridən çıxarmağa kömək edir və dərini dərindən təmizləyir.
- Eşşək südü ilə yuyulan saçlar daha həcmli və baxımlı görünür.
- Baş dərisində kəpək əmələ gəlməsinin və saç tökülməsinin qarşısını alır.
- O, baş dərisində qaşınmanın qarşısını alır və saçqıranların müalicəsində mühüm rol oynayır.
- Əlavə olaraq, eşşək südü kremi həm saçda, həm də dəridə daha təsirli nəticələr əldə etmək üçün sabunla birlikdə istifadə edilə bilər.

## Eşşək südü niyə bahadır?

İstilik və ya pasterizasiyaya məruz qalmamalı olduğu üçün uzunmüddətli məhsul deyil. Bu səbəbdən iri ticarət mərkəzlərində və ya marketlərdə satılmır.

Son zamanlar populyarlığının artması Türkiyənin müxtəlif bölgələrində yerli eşşək fermalarının açılmasına səbəb olub. Yeni doğulmuş eşşək gündə maksimum 1 litr süd verir, lakin 4-5 aydan sonra bu miqdar yarım litrə qədər azalır, 8-ci aydan sonra isə eşşək süd verməyi dayandırır. Eşşək südünün qiymətinin baha olmasının ən böyük səbəbi də budur.

2018-ci ildə Türkiyədə eşşək südünün qiyməti litri 80 lirə ilə 150 lirə arasında dəyişir.

## Eşşək südünün zərərləri və yan təsirləri

- Eşşək südü faydaları ilə seçilən bir qida olsa da, həddindən artıq istehlak edildikdə bəzi yan təsirlərə səbəb ola bilər.
- Eşşək südünün tərkibində qurğuşun, civə və kükürd kimi sağlamlıq üçün təhlükəli maddələr var. Buna görə tövsiyə olunandan çox istehlak edildikdə allergik vəziyyətlərə səbəb ola bilər. Bu maddələr insan orqanizmində toplanır və zəhərlənmələrə səbəb olur. Bu maddələr birbaşa mərkəzi sinir sisteminə və böyrəklərə təsir edərək inkişaf pozğunluqlarına səbəb olur.
- Qaraciyərdə toplanan və zəhərli təsir göstərən bu kimyəvi maddələr hərəkət və beyin funksiyalarının pozulmasına da səbəb ola bilər. 0-12 yaş qrupu üçün gündə 2 çay stəkanı nisbətində eşşək südü tövsiyə edilərkən, 12 yaşdan yuxarı olanlar üçün gündə 3 çay stəkanına qədər istehlak edilə bilər.

## Eşşək südü kremi nədir?

Eşşək südü kremi, əsas tərkib hissəsi kimi eşşək südü olan dəriyə qulluq vasitəsidir. Eşşək südü dəriyə qulluqda istifadə edilən çox qidalı və faydalı tərkib hissəsidir. Bu krem dəriyə qulluq üçün çoxlu müxtəlif faydalar təklif edir və xüsusilə həssas dərilər üçün uyğundur. Eşşək südünün tərkibində yüksək miqdarda vitaminlər, minerallar və digər faydalı maddələr var.

Yüksək qida dəyəri: Eşşək südü omeqa-3 və omeqa-6 yağ turşuları, vitaminlər (A, B1, B2, C və E) və dərini qidalandıran və bərpa edən minerallarla zəngindir.

Nəmləndirici xüsusiyyətlər: Eşşək südü dərinin nəm səviyyəsini artırmağa və dərini uzun müddət nəm saxlamağa kömək edən təbii nəmləndirici xüsusiyyətlərə malikdir.

Həssas dərilər üçün uyğundur: Dərinin qıcıqlanmasını və qızartısını azaltmaq qabiliyyəti sayəsində həssas dərilər də daxil olmaqla bütün dəri tipləri üçün uyğundur.

Yaşlanma Əleyhinə Effektləri: Eşşək südünün tərkibində dəridəki incə xətt və qırışların görünüşünü azaltmağa kömək edən antioksidanlar var.

Dərinin Yenilənməsi: Dərinin təbii yenilənmə prosesini dəstəkləyərək, daha sağlam və canlı dəri görünüşünə töhfə verir.

## Eşşək südü kreminin dəri üçün faydaları nələrdir?

- Eşşək südü dərini dərindən nəmləndirmək qabiliyyətinə malikdir. Bu xüsusilə quru dəri tipləri üçün faydalı ola bilər.
- Tərkibindəki yüksək A vitamini sayəsində dərinin bərpasına kömək edə bilər. Bu, dəridəki incə xəttlərin və qırışların azalmasına kömək edir.
- Eşşək südü antioksidantlarla zəngindir. Bu, dərini qocalma əlamətlərinə qarşı qorumağa və dərinin daha gənc görünməsinə kömək edə bilər.
- Eşşək südü müxtəlif dəri tipləri, o cümlədən həssas dərilər üçün uyğun məhsuldur. Dərinin qıcıqlanmasına səbəb olmadan istifadə edilə bilər.
- Eşşək südü kremi dəri ləkələrinin görünüşünü azaltmağa kömək edə bilər.
- İltihab əleyhinə xüsusiyyətləri sayəsində sızanaq və sızanaq kimi dəri problemlərini azaltmaqda təsirli ola bilər.

Bununla belə, eşşək südü kremindən istifadə etməzdən əvvəl bir dermatoloq və ya dəriyə qulluq mütəxəssisi ilə danışmaq vacibdir.



Hər dəri növü fərqlidir və hər məhsul hər dəri tipi üçün uyğun olmaya bilər. Allergik reaksiyaların və ya yan təsirlərin olub olmadığını öyrənmək üçün dərinin kiçik bir sahəsini sınamaq da faydalı olacaq.

## Eşşək südü kremindən necə istifadə edilir?

Eşşək südü kremindən istifadə etmək üçün tövsiyə olunan qayda budur:

**Təmizlik**

Dərinin təmizlənməsi: Dərinizi yumşaq bir şəkildə təmizləməklə dəriyə qulluğa başlayın. Bu, dərinizi kirdən, yağdan və makiyaj qalıqlarından təmizləyir və kremin tətbiqi üçün ideal baza hazırlayır.

**Hazırlıq**

Tonik Tətbiq: Dərini təmizlədikdən sonra məsamələri sıxmaq və dərini nəmləndirmək üçün tonik çəkə bilərsiniz. Bu addım dərini eşşək südü kreminə hazırlayır.

**Eşşək südü kremi tətbiqi**

Az miqdarda eşşək südü kremini ovucunuza çəkin. Kremi üz və boyun nahiyəsinə yumşaq dairəvi hərəkətlərlə çəkin. Göz ətrafına tətbiq edərkən diqqətli olun və gözlərlə birbaşa təmasdan çəkinin.

Yumşaq masaj edin: Kremi dərinizə yaxşıca hopdurmaq üçün yumşaq bir şəkildə masaj edin. Bu qan dövranını artırır, kremin daha yaxşı sorulmasına imkan verir.

**Əlavə Baxım (İstəyə görə)**

Göz Ətrafı Kremi: İstifadə edirsinizsə, göz ətrafı üçün xüsusi istehsal olunmuş krem çəkə bilərsiniz. Bu incə xəttlər və tünd dairələr üçün əlavə qayğı təmin edir.

Günəşdən qoruyucu tətbiq: Gün ərzində eşşək südü kremi tətbiq edirsinizsə, son addım olaraq geniş spektrli günəş kremindən istifadə etməyiniz tövsiyə olunur. Bu, dərinizi günəşin zərərli təsirlərindən qoruyur.

**Tezlik**

Gündəlik istifadə: Eşşək südü kremi ümumiyyətlə gündəlik istifadə üçün uyğundur. Səhər və yaxud axşam rutininizdə istifadə edə bilərsiniz.

Dəri reaksiyalarını müşahidə edin: Dəriyə qulluq rutininizə yeni bir məhsul təqdim edərkən dərinizin reaksiyasını müşahidə etmək vacibdir. Qıcıqlanma və ya allergik reaksiya əlamətləri görsəniz, istifadəni dayandırın və bir dermatoloqa müraciət edin.

Hər dəri növü və vəziyyəti fərqlidir, buna görə də dəriyə qulluq rutininiz tamamilə şəxsi ehtiyaclarınıza və dəri tipinizə uyğunlaşdırılmalıdır. Eşşək südü kreminin istifadəsinə başlamazdan əvvəl dəriyə qulluq üzrə mütəxəssis və ya dermatoloqla məsləhətləşmək həmişə yaxşıdır.

## Eşşək südü kremi bədəndə çatlara necə təsir edir?

Eşşək südü kremi qidalandırıcı və nəmləndirici xüsusiyyətləri sayəsində dəridə çat izlərini aradan qaldırmaq üçün faydalıdır.

Mümkün təsirləri bunlardır:

- Nəmləndirici: Eşşək südü dərini dərindən nəmləndirir. Bu, dərinin elastikliyini artıra və çat yaranmasının qarşısını almağa kömək edə bilər.
- Dərinin bərpası: Yüksək vitamin A tərkibi dərinin yenilənməsi prosesini dəstəkləyərək çat izlərinin görünüşünü azalda bilər.
- Elastikliyin Artırılması: Dərinin elastikliyini və möhkəmliyini artırmağa kömək edən maddələr ehtiva edə bilər. Bu, hamiləlik və ya çəki dəyişiklikləri nəticəsində yaranan çat işarələrini azaltmaqda xüsusilə təsirli ola bilər.
- Antioksidant xüsusiyyətləri: Tərkibindəki antioksidant tərkibi dərinin ümumi sağlamlığını və görünüşünü yaxşılaşdıra bilər ki, bu da uzanma izlərini azaltmağa kömək edə bilər.

Dəri bariyerinin gücləndirilməsi: Dərinin təbii baryerini gücləndirərək dərini xarici faktorların yaratdığı zədələrə qarşı qoruya bilər.

Xüsusilə hamiləlik dövründə və ya ciddi dəri problemləri olanlar üçün eşşək südü kremini istifadə etməzdən əvvəl bir sağlamlıq mütəxəssisi və ya dermatoloqla danışmaq vacibdir. Hər dəri növü və vəziyyəti fərqli olduğundan, fərdi ehtiyaclarınıza və dəri tipinizə uyğun bir müalicə planı yaratmaq üçün peşəkar rəhbərlik axtarmaq daha yaxşıdır.

## Hamilə qadınlar eşşək südü kremindən istifadə edə bilərmi?

Hamiləlik dövründə dəriyə qulluq vasitələrinin istifadəsi xüsusi diqqət tələb edən bir məsələdir. Eşşək südü kremi kimi təbii tərkibli məhsullar ümumiyyətlə zərərsiz hesab edilsə də, hamilə qadınlar belə məhsullardan istifadə etməzdən əvvəl bir neçə vacib məqamı nəzərə almalıdırlar:

- Eşşək südü kreminin tərkibində təbii maddələr olsa da, hamiləlik zamanı hər hansı inqrediyentin təhlükəsiz olub-olmadığını yoxlamaq vacibdir. Bəzi əlavə maddələr, xüsusən də efir yağları hamiləlik dövründə tövsiyə olunmaya bilər.
- Dərinin quruluşu hamiləlikdən əvvəl və hamiləlik zamanı dəyişə bilər. Buna görə də, hər hansı yeni dəriyə qulluq məhsulunu istifadə etməzdən əvvəl bir dermatoloq və ya tibb işçisi ilə məsləhətləşmək daha yaxşıdır.
- Hamiləlik dövründə dəri daha həssas ola bilər. Buna görə də, hər hansı yeni məhsulu, o cümlədən eşşək südü kremini istifadə etməzdən əvvəl dərinin kiçik bir sahəsini sınaqdan keçirmək hər hansı bir allergik reaksiyanın qarşısını ala bilər.
- Eşşək südü kremi alarkən məhsulun keyfiyyətinə və etibarlılığına diqqət yetirin. Etibarlı mənbələrdən tədarük olunan və keyfiyyət standartlarına uyğun məhsulları seçin.
- Məhsulun istifadəsinə dair təlimatlara riayət etmək hər hansı yan təsirlərin qarşısını almağa kömək edə bilər.

*Ayşən Vəli*

# Əngəlləri aşdılar, cəmiyyətin stiqmasını yox

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb.*



*Fiziki məhdudiyyəti olan uşaqların sağlam yaşıdlarından daha çox sosiallaşmağa ehtiyacı var*

Beynəlxalq təsnifata görə əlillik, insanın həyat fəaliyyətinin səviyyəsini və sağlamlığının məhdudlaşmasını bildirən ümumi bir termindir. İnsan bədəninin və ya bədən strukturunun fəaliyyətində problem yaradan pozuntular müəyyən hərəkətlərin icrasını məhdudlaşdırır. Həyat fəaliyyətinin məhdudlaşması dedikdə, insanın bəzi hadisə və vəziyyətlərdə iştirakının məhdud olması anlaşılır. Sağlamlıq imkanları məhdud olan uşaqlar, öz həmyaşıdları ilə müqayisədə inkişaflarında geriqalma və ya hərəkət, qavrama kimi başqa funksiyaların pozulması aşkar olunan uşaqlardır. Onların daha çox sosiallaşmağa, ünsiyyətə ehtiyacı var.



Lakin ətrafımızda çox rastlaşmışıq, fiziki məhdudiyyətli adam görən kimi əksəriyyət qulağını çəkir, "Allah uzaq eləsin" deyir və üstəlik, onun bu davranışını o məhdudiyyətli insan görür. Halbuki fiziki qüsurlu insanların mərhəmətə yox, iliq bir təbəssümə, sevgiyə, anlayışa ehtiyacı var. Bu cür neqativ münasibətlərə görə onlar evdən bayıra çıxmırlar. Çünki bayıra çıxan kimi onu barmaqla göstərirlər.

Bəzən cəmiyyət öz zövqünü başqalarının həyatından üstün tutur – biri bayırda əlil insan görmək istəmirsə, o əlil evə qapanmalı, həyatını 4 divar arasında keçirməli, bəzən intihar etməli olur. Niyə? Çünki onun doğulduğu cəmiyyət hələ ibtidai düşüncədən ayrılmayıb. İnsanlar bilmirlər ki, onların qınağı, stiqması üzündən bir yox, yüzlərlə fiziki qüsurlu insan ev həbsinə məhkum olur.

Digər bir problem də onların bayırda rahat hərəkətinin tənzimlənməməsidir ki, əlil arabaların keçidi üçün xüsusi panduslar çox azdır. Əgər fiziki qüsuru olan adam bir ticarət mərkəzinə, instituta, metroya, kitabxanaya girmək istəsə, bunu tək bacarmayacaq, çünki keçid üçün pandus qoyulmayıb. Səkilər işğal edilərək alver dükanlarına, avtomobilyuma məntəqələrinə çevrilib, piyadaların keçməsi üçün nəzərdə tutulan keçidlərə isə düşmək iki ayağı olan üçün də çətindir, o ki qaldı fiziki problemi olan insan ola.

Əslində, əlilliyi olan şəxslərin hüquqlarının qorunması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin sosial müdafiə sahəsinə, həssas qruplara xüsusi diqqət və qayğısı əlilliyi olan şəxslərin də sosial təminatı, onların tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində tədbirlərin ildən-ilə gücləndirilməsinə imkan verib.

Azərbaycan 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulub və ölkəmizdə Konvensiyadan irəli gələn öhdəliklər uğurla yerinə yetirilir. 31 may 2018-ci ildə qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir.

Beləliklə, ölkəmizdə fiziki imkanları məhdud uşaqların hüquqları "Uşaq hüquqları haqqında" Konvensiya, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Əlillərin hüquqları haqqında" Konvensiya, "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qorunur.

Bu sahədə qüvvədə olan qanunvericilik, əlilliyə səbəb olan risklərin, əlillik əlamətinə görə ayrıseçkiliyin bütün formalarının aradan qaldırılmasını, əlilliyi olan şəxslərin reabilitasiyasını, cəmiyyətin həyatında tam həcmdə iştirakını və sosial inteqrasiyasına şərait yaradılmasını, onlara aid olan strategiya və proqramlara dair qərarların qəbulu prosesinə fəal cəlb olunmasını, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyi olan şəxslər əlilliyə görə əmək pensiyası və ya aylıq sosial müavinətlə, eləcə də 18 yaşadək əlilliyi müəyyən edilmiş şəxslər aylıq müavinətlə təmin edilir. Müharibə ilə əlaqədar, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar, Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslər həmin pensiya və ya aylıq sosial müavinətlə yanaşı, Prezidentin aylıq təqaüdü ilə təmin olunurlar. Həmçinin, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə, onlara, həmçinin, əlilliyi müəyyən edilmiş uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü verilir.



Əlillərin həyatına normal davam edə bilməsi üçün dövlət tərəfindən reabilitasiya xidmətləri göstərilir. Reabilitasiya artıq itirilmiş funksiyaların bərpasıdır. ÜST-nin tərifinə görə, reabilitasiya – fərdin maksimal mümkün olan səviyyədə fəaliyyətə uyğunlaşdırılması üçün tibbi, sosial, təhsil və əmək tədbirlərinin kompleks şəkildə məqsədyönlü istifadəsidir. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, sosial reabilitasiya, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların həyat səviyyəsinin yaxşılaşdırılmasını, onlara cəmiyyətin həyatında iştirak etmək üçün digər vətəndaşlarla bərabər imkanlar yaradılmasını təmin edən tədbirlər sistemidir.

Hazırda ölkəmizdə Şağan Reabilitasiya Pansionatı, Mərdəkan Reabilitasiya Pansionatı, Bakı Reabilitasiya Mərkəzi,1 nömrəli Uşaq Reabilitasiya Mərkəzi, Respublika Reabilitasiya Mərkəzi, Qəbələ Uşaq Reabilitasiya Mərkəzi, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Xaçmaz, Lənkəran, Yevlax Reabilitasiya Mərkəzləri, 2 nömrəli Uşaq Reabilitasiya Mərkəzi, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi fəaliyyət göstərir.

Əlilliyi olan şəxs və ya qanuni nümayəndəsi əlilliyi olan şəxsin yaşadığı ərazi üzrə tək şəxsiyyət vəsiqəsi ilə Tibbi Sosial Ekspertiza Kommisiyalarına müraciət edərək yataq fondunun doluluq vəziyyətinə əsasən reabilitasiya üçün istədiyi tarixə rezervasiya formalaşdırır. Bunun üçün yalnız əlilli olan şəxsin şəxsiyyət vəsiqəsi tələb olunur.

Əlilliyin aradan qaldırılmasına və ya kompensasiyasına yönəldilmiş tibbi, psixoloji, pedaqoji, idman, sosial-iqtisadi və digər tədbirlər sistemi vasitəsilə əlilliyi olan şəxslərin müstəqilliyinin, fiziki, əqli, məişət, sosial və peşə-əmək qabiliyyətinin tamamilə və ya qismən bərpası üçün reabilitasiya aparılır, həmçinin orqanizmin anadangəlmə, yaxud xəstəlik və ya zədə nəticəsində sonradan pozulmuş funksiyalarının bərpasına və kompensasiyasına yönəldilmiş tibbi tədbirlər sistemi kimi tibbi reabilitasiya aparılır. Reabilitasiya dəri üzərindən soyuq-isti tətbiqi, dərin qızdırıcılar, elektroterapiya, ultrasəs terapiya, laborator xidmətlər, stimulasiya müalicəsi, hidroterapiya, masaj, MBT kimi müxtəlif üsullarla tətbiq edilir.

Sosial-psixoloji reabilitasiya çərçivəsində göstərilən xidmətlər siyahısına psixoloji diaqnostika, psixoloji xidmətlər, konsultasiya, korreksiya, psixoterapiya, psixoloji treninq, qrup terapiyası, loqopedik müayinə və korreksiya, sosial-pedaqoji fəaliyyət, sosial-psixoloji maarifləndirmə və profilaktika, əmək terapiyası, erqoterapiya, mədəni-kütləvi tədbirlər daxildir.

Məlumat üçün qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2023-cü ilin yanvar-avqust ayları ərzində 34,1 min şəxsə əlillik təyin edilib. Onlardan 16,8 mininə ilkin, 17,3 mininə təkrar əlillik təyinatı aparılıb. Əlilliyin qiymətləndirilməsi elektron sistem vasitəsilə, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumat əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir. Bu ilin 8 ayında agentliyin reabilitasiya mərkəzləri tərəfindən 49,1 min şəxsə reabilitasiya xidmətləri göstərilib.

Ötən il ölkəmizdə 488 774 (ümumi əhalinin 4,8%) nəfər əlilliyi olan şəxs olub. Onlardan 46 654 (9,5%) nəfəri uşaqlardır. Sosial müavinət alan əlillərin sayı ötən il 162 813 nəfər olub. 2024-cü ilin yanvar-fevral aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 7,9 min şəxsə əlillik təyin edib. Onlardan 3,8 mininə ilkin, 4,1 mininə təkrar əlillik təyinatı aparılıb. Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər (pensiya, müavinət, təqaüd) təyin olunub. Həmin aylarda Agentliyin reabilitasiya müəssisələrində əlilliyi olan 18 min şəxsə isə reabilitasiya xidmətləri göstərilib.

**Lalə Mehralı**

PROBLEM

SON SƏHİFƏ

SƏS

3 dekabr
2024-cü il

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Boşanma zamanı qızıllar kimdə qalmalıdır?



***"Azərbaycan Respublikası Ailə Məcəlləsinə əsasən, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah sazişində və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Aysel Seyidova deyib.***

## MÜNASİBƏT

O bildirib ki, nikaha daxil olanadək onlara məxsus olan əmlak, habelə nikah dövründə hədiyyə şəklində və ya vərəsəlik qaydasında, digər əvəzsiz əqdlər üzrə əldə etdikləri əmlak isə ər-arvadın hər birinin ayrıca mülkiyyətindədir: "Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra həyata keçirilə bilər. Əgər tərəflər arasında bu barədə mübahisə varsa, ər-arvadın ümumi əmlakının bölünməsi, eləcə də bu əmlakda ər-arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir. Nikahın pozulmasından sonra tərəflər arasında mübahisəyə səbəb olan məsələlərdən biri də qızıl-ziynət əşyalarının kimə məxsus olması ilə bağlıdır.

Ailə Məcəlləsinin 34.2-ci maddəsinə əsasən, ziynət əşyaları istisna olmaqla, fərdi istifadə şeyləri (geyim, ayaqqabı və s.) nikah zamanı ər-arvadın ümumi vəsaiti hesabına əldə edilsə də, ər-arvaddan kimin istifadəsində olubsa, ona məxsusdur. Nikaha daxil olanadək və nikah dövründə keçirilən mərasimlərdə (elçilik, nişan, toy və sair) tərəflərdən birinə hədiyyə verilən ziynət əşyaları onların ayrıca əmlakı sayılır və Ailə Məcəlləsinin 34.2-ci maddəsində müəyyən edilmiş istisnanın təsir dairəsinə düşmür. Yəni qanunvericiliyə görə hədiyyə şəklində verilən əşyalar kimə verilibsə, artıq onun əmlakı hesab edilir. Qeyd edək ki, ziynət əşyaları yalnız qiymətli metallardan və ya daşlardan hazırlanmış əşyaları deyil, digər qiymətli bəzək, süs, yaraşıq əşyalarını (məsələn, qol saatlarını, geyim aksesuarlarını və sair) da ehtiva edir.

Qızıl ziynət əşyalarının ona məxsus olduğunu iddia edən tərəf, ilk öncə həmin əşyaların həqiqətən mövcud olmasını sübüt etməlidir, məsələn, mübahisənin predmeti olan ziynət əşyaların əks etdirən foto şəkil və ya video görüntü sübut kimi məhkəməyə təqdim edilə bilər. Daha sonra isə iddiaçı qızıllarının qarşı tərəfdə olduğunu və onun qanunsuz sahibliyində olmasını sübut etməlidir ki, bu da bəzən çətin olur".

***Söylü Ağazadə***

# "Hər 4 məktəblidən biri zorakılığa məruz qalır"



*UNİCEF həyəcan təbili çalır*

"Bullinq təkcə fərdi, ailəni, məktəbi deyil, bütün cəmiyyəti narahat edən problemdir. Bu problemin həlli üçün qüvvələr birləşməli və birgə mübarizə aparılmalıdır." Bu barədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva "Yetkinlik yaşına çatmayanlar arasında aqressiv davranış: Bullinq" mövzusunda keçirilən konfransda deyib.

A. Sofiyeva qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatının son bir neçə il ərzində apardığı statistik hesabata əsasən uşaqların 20 faizi bullinqə məruz qalır və ya onun iştirakçısı olur: "UNİCEF-in hesabatına əsasən isə hər 4 məktəblidən biri zorakılığa və psixoloji təsirlərə məruz qalır. Valideynlər isə bildirirlər ki, uşaqların 60 faizi kiberbullinqə məruz qalırlar", - deyə sədr müavini qeyd edib.

# "Yeni il öncəsi bütün restoranlarda qiymətlər artacaq"

## İQTİSADÇI FİKRİ

"Dekabrın ilk günü olduğuna görə hələ Azərbaycanda yeni il aksesuarlarına maraq güclənməyib. Buna görə də qiymətlər hələ ki sabitdir". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Birliyinin sədri, iqtisadçı-ekspert Akif Nəsirli deyib. Akif Nəsirli sözlərinə belə davam edib: "Düzdür, ötən ilki qiymətlərlə müqayisədə bu il bir qədər bahadır. Amma hələ ümumilikdə sakitlikdir. Dekabrın 10-15-dən sonra bu istiqamətdə alıcılıq qabiliyyəti yüksələcək. Əhali daha çox bu məhsullardan alacaq və biz qiymətlərin aşırı dərəcədə yüksəlməsini müşahidə edəcəyik.

Bu əhalinin alıcılıq qabiliyyətindən asılı olan məsələdir. Yəni, alıcılıq qabiliyyəti aşağı olan əhali ümumiyyətlə yeni il aksesuarlarına vəsait ayıra bilmir. Belə ailələr çoxdur. Bir qrup alacaq, bir qrup da almaqdan imtina edəcək. Yeni ilə son bir həftə qalmış qiymətlər daha da bahalaşacaq. Yanvarın 1-dən sonra isə həmin məhsullar piştaxtalarda ya görünməyəcək, ya da çox az görünəcək.

Ümumilikdə isə yeni il öncəsi bütün restoranlarda qiymətlər artacaq. Bu da tələbatın artması ilə bağlıdır. İnhisarçı iqtisadiyyatda hansı sahədə dövriyyə artırsa, orada qiymət bahalaşır. Rəqabətli bazarda isə hansı sahədə dövriyyə artırsa, orda qiymətlər ucuzlaşır. Bizdə isə iqtisadiyyat inhisarçı iqtisadiyyatdır. Məsələn, Avropada yeni il öncəsi bütün restoranlarda və yeni il aksesuarları satılan yerlərdə qiymətlər ucuzlaşır. Çünki onlar rəqabətli mühitdə çalışır".



***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700